RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 158 (8751) BAZAR, 1 avqust 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Türkiyə, yanındayıq!

## Prezident İlham Əliyevin tapşırığına əsasən FHN-in yanğınsöndürmə qüvvələrinin əməkdaşlarından ibarət ikinci qrup da qardaş ölkəyə yola salınıb







"Yanan meşələrinlə yanaşı, bizim ürəyimiz də alovlanır!", "Yanındayıq, Türkiyə", "Bu çətinliyə də bərabər sinə gərib, birlikdə qalib gələcəyik"...

Son günlərdə qardaş Türkiyədə fəsadlar törədən və insan itkisinə səbəb olan meşə yanğınları bütün Azərbaycan xalqının dərin üzüntüsünə, kədərinə səbəb olub. Hər bir azərbaycanlı sevinci sevincimiz, kədəri kədərimiz olan qardaşlarımıza bu dar günlərdə də arxa olmaq üçün bir ürək olub. Kimi dəstək mesajları, paylaşımları, kimi də duaları ilə türk xalqı ilə həmrəy olduğunu bildirir.

Sosial şəbəkələrin Azərbaycan seqmentinə nəzər saldıqda əksər istifadəçilərin şəkillərinin Türkiyə bayrağı ilə bəzəndiyini, paylaşımlarında qardaş xalqa dəstək mesajlarını görürük. Eynilə Vətən müharibəsi zamanı türk qardaşlarımızın Azərbaycanla bağlı paylaşımlarında olduğu kimi. Hər zaman üçrəngli, ay-ulduzlu Azərbaycan bayrağı, al qırmızı, ay-ulduzlu Türkiyə bayrağı ilə qoşa dalğalandırıldı. Türkiyə müharibənin ilk dəqiqələrindən etibarən Azərbaycanın haqlı davasının yanında olduğunu nümayiş etdirdi. Son dərəcə böyük siyasi və mənəvi dəstək nümayiş etdirərək qardaşına dayaq oldu.

Sonrakı mərhələlərdə də iki ölkə arasındakı qardaşlıq münasibətləri daha yüksək pillələrə qədəm qoydu.

Ardı 5-ci səh.

## "Yüksəliş" müsabiqəsinin qaliblərinə

Əziz dostlar.

Sizi - intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunan "Yüksəliş" müsabiqəsinin qaliblərini səmimi-qəlbdən təbrik edirəm.

Müasir dövrdə hər bir fəaliyyət sahəsində yeni ideya və baxışlar tələb edilməklə yanaşı, elmi biliklərə əsaslanan bacarıq və vərdişlərə malik kadr ehtiyatlarının mövcudluğu vacib şərtlərdən biridir. Danılmaz həqiqətdir ki, peşəkar insan ehtiyatı hər bir ölkənin sərvəti hesab olunur.

İnsan kapitalının inkişaf etdirilməsi bizim üçün həmişə ciddi qəbul edilən prioritet məsələ olmuş və olmaqda davam edir. Ölkəmizdə yüksək intellektə malik insan kapitalının formalaşması və inkişafına, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsinə, müxtəlif sahələrdə qazanılmış qabaqcıl dünya təcrübəsini tətbiq edərək onun potensialının üzə çıxarılmasına hər zaman xüsusi diqqət yetirilib.

Azərbaycan son illər ərzində bir çox uğurlara imza atıb, qələbələr qazanıb. Azərbaycan "qara qızılı" insan kapitalına çevirməyi bacaran ölkədir. Davos Ümumdünya İqtisadi Forumunun hesabatına əsasən bir çox göstəricilərə görə Azərbaycan dünya miqyasında ön sıralardadır. Ölkəmiz regionda həyata keçirilən bir sıra mühüm layihələrin təşəbbüskarı və iştirakçısıdır. Bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Müzəffər Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı Zəfər müasir tariximizin ən parlaq səhifələrini təşkil edir. Sözsüz ki, bütün bu uğur və qələbələrə biz xalqımızın zəngin insan potensialına arxalanaraq nail ola bilmişik.

Əziz dostlar.

"Yüksəliş" müsabiqəsi zamanın çağırışlarına cavab olaraq kadr ehtiyatının zənginləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində atılmış mühüm addımlardandır. Əminəm ki, dövlətimizin daimi diqqət və qayğısı ilə siz tükənməz enerji ilə çalışaraq müstəqil Azərbaycanın inkişafı naminə hər zaman öz töhfələrinizi verəcəksiniz. Sizi bir daha təbrik edir, hər birinizə möhkəm cansağlığı və yeni-yeni nailiyyətlər arzulayıram.

***Mehriban ƏLİYEVA,***
***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti,***
***Heydər Əliyev Fondunun prezidenti***

## İsveçrə Konfederasiyasının Prezidenti zati-aliləri cənab Qi Parmölənə

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan-İsveçrə əlaqələrinin daha da genişləndirilməsi, ölkələrimiz arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, İsveçrə Konfederasiyasına daim firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyul 2021-ci il*

**◆ Müəllifi İlham Əliyevdir**

## İşlər asan, xidmət şəffaf, vətəndaş məmnunluğu yüksək

### Prezident İlham Əliyevin bir il öncə açılışını etdiyi Balakən "ASAN xidmət" Mərkəzi ötən müddətdə 100 min vətəndaşın müraciətini qəbul edib

Azərbaycanın dilbər guşələrindən biri olan Balakən rayonundayıq. Əsrarəngiz təbiəti, flora və faunası - xurması, alması, armudu, qoz-fındığı ilə məşhur olan, zəhmətsevər insanların əməyi ilə gündən-günə yüksələn, şöhrətlənən, füsunkar gözəlliyi ilə gələnləri valeh edən Balakən bu gün özünün bəxtəvər günlərini yaşayır. Səfərimizin məqsədi isə bir ildir ki, burada balakənlilərlə yanaşı, Zaqatala və Qax rayonlarının da əhalisinə operativ xidmət göstərən "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanşlıqdır.



### Ərazi məhdudiyyəti olmadan bütün vətəndaşlara xidmət göstərilir

Balakən regional "ASAN xidmət" Mərkəzi ötən il iyulun 29-da Prezident İlham Əliyevin iştirakı ilə açılıb. Mərkəzin tikintisinə 2018-ci ilin noyabrında başlanılıb. Tikinti işləri 2020-ci ilin iyulunda başa çatıb. Bir hektara yaxın ərazidə inşa olunan dördmərtəbəli mərkəzin tikinti sahəsi 4153 kvadratmetrdir.

17 avqust 2020-ci il tarixdən fəaliyyətə başlayan mərkəzdə Balakən, Zaqatala, Qax rayonlarında qeydiyyatda olan 284 minə yaxın vətəndaşla yanaşı, ölkə üzrə ərazi məhdudiyyəti olmadan bütün vətəndaşlara xidmət göstərilir.

Ardı 3-cü səh.




## Çingiz Hüseynzadədən idmançılarımıza dəstək

### "Azərbaycan hər zaman olimpiadaların son 2-3 günündə medallar qazanıb"

"Əlbəttə, 30 iyul bizim üçün əhəmiyyətli gün idi. İlk medalımızı qazandığımız üçün xoşbəxtik. Bu münasibətlə Azərbaycanın bütün idmansevərlərini təbrik edirəm".

Bunu Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə Azərbaycan cüdoçusu İrina Kindzerskanın (+78 kq) "Tokio-2020" Yay Olimpiya Oyunlarında bürünc medal qazanması barədə danışarkən deyib. Onun sözlərinə görə, olimpiada Yaponiyada keçirildiyindən cüdoda medalların əksəriyyətini yerli idmançılar qazanıblar: "Çox təəssüf ki, Azərbaycan cüdoçuları "Tokio-2020"də Yaponiya cüdoçuları ilə görüşməli oldular.

Ardı 5-ci səh.



## 190 ölkə arasında 28-ci

### "Doing business- 2020" hesabatında Azərbaycan 6 pillə irəliləyib

Azərbaycanın mövqeyi "Doing business - 2020" hesabatında 6 pillə yüksələrək 190 ölkə arasında 28-ci olub. "Heritage Fondu" tərəfindən hazırlanan "İqtisadi Azadlıq İndeksi - 2021" hesabatında isə Azərbaycan 172 ölkə arasında 38-ci yerdə qərarlaşıb.

2021-ci ildə açıqlanmış Beynəlxalq Telekommunikasiya İttifaqının (ITU) "Qlobal kibertəhlükəsizlik indeksi - 2020"də də Azərbaycan 15 pillə irəliləyib. Bunlardan əlavə, Uşaq Hüquqları Fondu və Erasmus Rotterdam İnstitutunun "Uşaq Hüquqları İndeksi - 2021" hesabatına görə, Azərbaycan 2020-ci illə müqayisədə 3 pillə önə keçib. UNESCAP-ın "Transsərhəd kağızsız ticarətə hazırlığın qiymətləndirilməsi" layihəsinin cari il üzrə sorğusunun nəticəsinə görə də Azərbaycan regionda liderliyini qoruya bilib.

Həyata keçirilən islahatların əsas məqsədi ölkənin neftdən asılılığını aradan qaldırmaqla qeyri-neft sektorunun şaxələndirilməsinə nail olmaqdır.

Bax: səh. 6

## F.Ə.Kərimovanın "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqi sənətinin inkişafında xidmətlərinə görə Flora Ələkbər qızı Kərimova "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 iyul 2021-ci il*

## F.Ə.Kərimovaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan musiqi sənətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Flora Ələkbər qızı Kərimovaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 iyul 2021-ci il*

# İdarələrarası Mərkəzin İşçi qruplarının Hadrutda keçirilən birgə iclasında Qarabağda görülən və görüləcək işlər müzakirə edilib

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin Şəhərsalma məsələləri üzrə, Nəqliyyat, rabitə və yüksək texnologiyalar üzrə və Elm, təhsil və mədəniyyət məsələləri üzrə İşçi qruplarının Xocavənd rayonunun Hadrut qəsəbəsində birgə iclası keçirilib. Toplantıda İşçi qruplarına daxil olan nazirliklərin, agentliklərin və digər aidiyyəti dövlət qurumlarının nümayəndələri iştirak ediblər.





AZƏRTAC xəbər verir ki, iclası giriş sözü ilə açan Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, Elm, təhsil və mədəniyyət məsələləri üzrə İşçi Qrupunun rəhbəri Fərəh Əliyeva Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə və Azərbaycan Ordusunun yenilməzliyi sayəsində Vətən müharibəsində qazanılmış böyük Qələbənin davamı olaraq işğaldan azad edilmiş ərazilərdə geniş quruculuq işlərinin də eyni yenilməzlik ruhu ilə həyata keçirildiyini vurğulayıb. İşçi qruplarının birgə iclasının işğaldan azad edilmiş ərazilərdə keçirilməsinin görülən işlərin səmərəliliyinin artırılmasında mühüm addım olduğunu diqqətə çatdırıb.

Sonra Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini, Əlaqələndirmə Qərargahının katibliyinin müdiri Nüsrət Süleymanov çıxış edərək Qərargah tərəfindən görülən işlərin sistemli xarakter daşıdığını bildirib, İdarələrarası Mərkəzin müvafiq İşçi qruplarının fəaliyyətinə toxunub, aidiyyəti dövlət qurumları tərəfindən Qarabağ bölgəsində həyata keçirilən layihələrin əhəmiyyətini qeyd edib. İşğaldan azad edilmiş ərazilərdə aparılan işlərin artım dinamikasını nəzərə alaraq əlaqələndirmə fəaliyyətlərinin daha sıx şəkildə həyata keçirilməsinin vacibliyini vurğulayıb.

İclasda Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini, Şəhərsalma məsələləri üzrə İşçi Qrupunun rəhbəri Namiq Hümmətov işğaldan azad edilmiş ərazilərin Ümumi və Baş planlarının hazırlanması, şəhərsalma layihələri istiqamətində görülən işlər barədə iclas iştirakçılarına məlumat verib. Qarabağ bölgəsində yerləşən kənd və qəsəbələrin inkişafı məsələsinin ayrıca yanaşma tələb etdiyi, bu məqsədlə 5 kənd və 1 qəsəbənin gələcək memarlıq simasının müəyyən olunması üçün komitə tərəfindən "Qədim Qarabağın yenilənən siması" müsabiqəsinə start verildiyi bildirilib. Hazırda iştirakçılar tərəfindən layihələrin müsabiqəyə təqdim edilməsi müddəti yekunlaşıb və həmin layihələrin münsiflər heyəti tərəfindən qiymətləndirilməsi prosesinə başlanılır. Qeyd olunub ki, bu müsabiqənin işğaldan azad edilmiş digər kənd və qəsəbələr üzrə də davamlı şəkildə keçirilməsi nəzərdə tutulur.

Çıxış edən nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini, Nəqliyyat, rabitə və yüksək texnologiyalar üzrə İşçi Qrupunun rəhbəri Rəhman Hümmətov bölgədə icra olunan infrastruktur layihələrinin sürətli və planlı şəkildə həyata keçirildiyini, yolların layihələndirilməsi və vahid planların hazırlanması işləri ilə bağlı qardaş Türkiyə şirkətlərinin cəlb edildiyini vurğulayıb. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə qanunsuz telekommunikasiya xidmətlərinin qarşısının alınması üçün işlərin görüldüyü, 7 rayon üzrə radioloji və radioekoloji tədqiqatların aparıldığı bildirilib.

Həmçinin iclasda işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi, nəqliyyat və telekommunikasiya infrastrukturu layihələrinin icra vəziyyəti, mədəni irsin və tarixi-mədəniyyət abidələrinin qorunması, Ağdam və Şuşa şəhərlərində tarixi mədəniyyət abidələrinin bərpası məsələlərinə dair müzakirələr aparılıb.

Qeyd edək ki, səfər çərçivəsində Elm, təhsil və mədəniyyət məsələləri üzrə İşçi Qrupunun üzvləri Ağdamda səfərdə olub, yenidənqurma və bərpasına ehtiyac duyulan tarix, mədəniyyət abidələrinə baxış keçiriblər. Şəhərsalma məsələləri və Nəqliyyat, rabitə və yüksək texnologiyalar üzrə İşçi qruplarının isə Füzuli və Şuşa şəhərlərinə səfərləri baş tutub. Dövlət qurumlarının əməkdaşları tərəfindən Füzuli Beynəlxalq Hava Limanının və Zəfər yolunun tikinti işlərinə, Füzuli-Hadrut avtomobil yolunda aparılan minatəmizləmə prosesinə baxış keçirilib, qrup üzvlərinə Füzuli şəhərinin ərazi planlaşdırma sənədlərinin hazırlanması haqqında məlumat verilib. Şuşa şəhərinə səfər zamanı isə Şuşa Radio-Televiziya Yayım Stansiyası, Şuşa Rabitə Qovşağının binası və mövcud yol infrastrukturu ilə tanışlıq olub, şəhərin ilkin planlaşdırma layihələrinə baxış keçirilib.

Diqqətə çatdıraq ki, işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası işlərinin mərkəzləşdirilmiş və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi, məlumat mübadiləsinin təşkili məqsədilə Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin İşçi qruplarının iclasları mütəmadi şəkildə keçirilir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# Azərbaycan-İsrail iqtisadi əlaqələri genişlənir

Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın həmsədri, iqtisadiyyat naziri Mikayıl Cabbarovun başçılıq etdiyi nümayəndə heyəti İsraildə işgüzar səfərdə olub.



İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın həmsədrləri - Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və İsrailin turizm naziri Yoel Razvozov arasında görüş keçirilib. Mikayıl Cabbarov həmçinin İsrailin xarici işlər naziri Yair Lapid, maliyyə naziri Aviqdor Liberman, inşaat və mənzil siyasəti naziri Zeev Elkin, regional əməkdaşlıq naziri Esavi Frejlə görüşüb.

Görüşlərdə yüksək texnologiyalar, rəqəmsallaşma, ali təhsil, xüsusilə informasiya texnologiyaları və kiber təhlükəsizlik sahəsində əməkdaşlıq, kənd təsərrüfatı, bərpa olunan enerji, ikitərəfli ticarətin genişləndirilməsi, vergi məsələləri, yeni əməkdaşlıq imkanları, qeyri-neft sektorunda qarşılıqlı təcrübə mübadiləsi, həmçinin azad edilmiş ərazilərimizin bərpası istiqamətində həyata keçiriləcək layihələr barədə müzakirələr aparılıb, İsrail şirkətlərinin layihələrdə iştirakda marağı ifadə olunub.

İsrail rəsmiləri ölkələrində Azərbaycanın Ticarət və Turizm nümayəndəliklərinin açılmasını yüksək qiymətləndirib, bunun tərəfdaşlığın, işgüzar dairələr arasında əlaqələrin genişləndirilməsi, biznes-dialoqun təşviqi üçün əhəmiyyətli platforma olacağını, keçirilən görüşlərin və aparılan səmərəli müzakirələrin qarşılıqlı əməkdaşlığın gücləndirilməsinə və birgə layihələrin icrasına, ticarət, tikinti, kənd təsərrüfatı, bərpa olunan enerji, İKT, kiber təhlükəsizlik, turizm kimi sahələrin inkişafına töhfə verəcəyini vurğulayıblar.

# İsrailin biznes dairələri Azərbaycanla əməkdaşlıqda maraqlıdır

İsrailin Təl-Əviv şəhərində Azərbaycanın Ticarət və Turizm nümayəndəlikləri açılıb, İsrail biznes dairələrinin iştirakı ilə İşgüzar "dəyirmi masa" keçirilib.



İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, işgüzar görüşdə çıxış edən Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın həmsədri, iqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycan-İsrail iqtisadi münasibətlərinin yüksək səviyyədə olduğunu, əməkdaşlığın gücləndirilməsi istiqamətində işlərin davam etdirildiyini vurğulayıb. Qeyd olunub ki, tədbir iqtisadi tərəfdaşlığın inkişafına, biznes dairələri arasında əlaqələri dərinləşdirməyə istiqamətlənmiş təşəbbüslər üçün əhəmiyyətli platformadır. İsraildə açılan Azərbaycanın Ticarət və Turizm nümayəndəlikləri iş adamları arasında əməkdaşlığın genişlənməsi üçün yeni mexanizmlərdir və qeyri-neft ixracının artırılması, biznes və investisiya mühitinin təşviqi, qarşılıqlı investisiyaların cəlb olunması, həmçinin turizm əlaqələrinin inkişafına fayda verəcək.

Mikayıl Cabbarov ölkəmizin müasir innovasiyalar məkanına çevrilməsinin qarşıya hədəf kimi qoyulduğunu, enerji, səhiyyə, rəqəmsallaşma, investisiya, innovasiya, İKT, kənd təsərrüfatı, su sektorunun idarə edilməsi, turizm və sair sahələrdə tərəfdaşlıq üçün böyük potensialı diqqətə çatdırıb. Bildirilib ki, işğaldan azad olunmuş ərazilərimizin təbii ehtiyatları, avtomobil və dəmir yolları şəbəkəsinin, hava limanlarının tikintisi, yeni nəqliyyat dəhlizlərinin, xüsusən də Zəngəzur dəhlizinin açılması investorlar üçün geniş imkanlar yaradır. Bununla yanaşı, "Ağıllı şəhər", "Ağıllı kənd", "Yaşıl enerji" layihələrinə xarici investorların cəlb edilməsi üçün müvafiq addımlar atılır. İqtisadiyyat naziri İsrail şirkətlərini Azərbaycanın əlverişli biznes və investisiya mühitindən, iqtisadi potensialından yararlanmağa və fəal əməkdaşlığa dəvət edib.

İşgüzar "dəyirmi masa"da energetika nazirinin müavini Elnur Soltanov Azərbaycan-İsrail əlaqələrinin uğurlu inkişafını, keçirilən tədbirlərin və aparılan səmərəli müzakirələrin tərəfdaşlığın genişləndirilməsində əhəmiyyətini qeyd edib, qlobal çağırışlara uyğun yeni əməkdaşlıq istiqamətləri, o cümlədən "Yaşıl enerji" layihələrində birgə iştirak barədə fikirlərini bölüşüb.

Tədbir çərçivəsində İsrailin "OurCrowd" şirkəti və Azərbaycan İnvestisiya Şirkəti arasında Anlaşma Memorandumu imzalanıb. Sənəddə startap layihələrinə sərmayə qoyuluşu, İsrailin aparıcı şirkətlərinin qabaqcıl təcrübəsinin ölkəmizdə tətbiqi, innovasiyalar, ekosistemin təkmilləşdirilməsi sahəsində əməkdaşlıq nəzərdə tutulur. Memorandumda əksini tapan məsələlərin reallaşdırılması yeni texnologiyaların sürətlə mənimsənilməsinə, onların vətəndaşlara və biznes maraqlarına xidmət etməsinə, dövlət qurumlarının və biznesin yeni çağırışlara çevik uyğunlaşmasına töhfə verəcək.

Qeyd edək ki, 2013-cü ildə qurulan "OurCrowd" şirkəti İsrailin vençur investisiya şirkətidir. Qiymətli kağızlar üzrə dünyanın ən böyük kütləvi maliyyələşdirmə platformalarından olan şirkət süni intellekt, texnologiya, nəqliyyat, enerji, səhiyyə, təhlükəsizlik və digər sahələrdə fəaliyyət göstərən startap şirkətlərinə investisiya qoyuluşu üzrə ixtisaslaşıb. Şirkət investorlar və qurumlar üçün startaplara, ilkin mərhələli şirkətlərə və vençur fondlara sərmayə qoyuluşu məqsədilə yatırım platforması təklif edir. "OurCrowd" şirkətinin qurucusu və baş direktoru Jonathan Medved İsraildə yüksək texnologiyalar sahəsində tanınmış mütəxəssis və vençur investorudur.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri Yusif Abdullayevin də iştirak etdiyi İşgüzar "dəyirmi masa"da İsrail şirkətlərinin təqdimatı dinlənilib, aparıcı şirkətlərlə ikitərəfli görüşlər keçirilib. Müzakirələrdə İsrail şirkətləri əməkdaşlığın genişləndirilməsində və yeni əlaqələrin qurulmasında maraqlarını ifadə ediblər.

# İdarələrarası Mərkəzin İqtisadi Məsələlər üzrə İşçi Qrupunun növbəti iclası keçirilib

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahı nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin İqtisadi Məsələlər üzrə İşçi Qrupunun növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, videoformatda keçirilən iclasda İqtisadi Məsələlər üzrə İşçi Qrupunda təmsil olunan Prezident Administrasiyası, İqtisadiyyat, Maliyyə, Energetika və Kənd Təsərrüfatı nazirliklərinin, Mərkəzi Bankın, Dövlət Turizm Agentliyinin, Qarabağ Dirçəliş Fondunun, İpoteka və Kredit Zəmanət Fondunun nümayəndələri iştirak ediblər.




Əlaqələndirmə Qərargahının təsdiq etdiyi Strateji Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrası məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən görülmüş işlər barədə məlumat verilib. Qeyd edilib ki, ötən dövr ərzində Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan, Ağdam, Xocavənd, Tərtər, Şuşa, Xocalı və Kəlbəcər rayonları üzrə cəmi 13 911 daşınmaz əmlakın (11 016 tikili və 2 895 infrastruktur obyekti) çöl inventarlaşdırma işləri tamamlanıb və Laçın rayonunda işlər davam etdirilir. Həmçinin ilkin inventarlaşdırması aparılmış əmlakların 5 165-nin (37.1 faiz) əsasən yararlı, 4411-nin (31.7 faiz) qismən yararlı, 4335-nin (31.2 faiz) isə yararsız vəziyyətdə olduğu müəyyən edilib.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı"nın yekun layihəsi dövlət orqanları, müəssisə və təşkilatlarının, həmçinin Əlaqələndirmə Qərargahının müvafiq işçi qruplarının rəy və təkliflərinin təhlili əsasında hazırlanıb və Nazirlər Kabinetinə təqdim olunub.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 28 may tarixli fərmanı ilə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, müasir texnologiyaların tətbiqi yolu ilə sənaye sahəsində rəqabətqabiliyyətli məhsul istehsalı, emalı (təkrar emalı) və satışı, habelə xidmətlər göstərilməsi üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən Ağdam Sənaye Parkı yaradılıb. Hazırda müraciətlər əsasında 12 potensial rezident seçilib.

İşğaldan azad edilmiş ərazilərdə (Kəlbəcər və Laçın rayonlarında) ilkin zəruri tələbatların ödənilməsi üçün gündəlik tələbat malları dükanları, aptek, bankomat və s. açılması məqsədilə müvafiq şirkətlərlə görüşlər keçirilib. Razılaşdırılmış qrafik və marşrut üzrə qeyd olunan rayonlarda sahibkarların ərazilərə səfəri nəzərdə tutulur.

Vahid informasiya platforması rolunu oynayan Qarabağ Rəqəmsal Geo-İnformasiya Sisteminə hazırda 27 dövlət qurumunun və təşkilatının 12-sinin qoşulması təmin edilib, adıçəkilən proqram təminatından istifadə məqsədilə müvafiq təlimlər keçirilib. Digər aidiyyəti dövlət qurumları və təşkilatlarının həmin sistemə qoşulması istiqamətində işlər davam etdirilir.

İşğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı 676 müraciət olub. İnvestisiya layihələrinin prioritetliyi təhlil edilir, potensial layihələr müəyyənləşdirilir və informasiya bazasına daxil edilir.

Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsi tərəfindən verilən məlumatda bildirilib ki, işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqların istifadəyə verilməsi məqsədilə şirkətlərlə görüşlər keçirilib. Həmin şirkətlərlə 14497.25 hektar torpaq sahəsini əhatə etməklə torpaqdan istifadə ilə bağlı müqavilələr bağlanılıb və əkin aparılmış 9557.25 hektar əkin sahəsinə subsidiyalar ödənilib. İyulun 23-dək 8957.5 hektar taxıl sahəsi biçilib. Pilot layihə çərçivəsində Kəlbəcər rayonundan olan fermerlərə məxsus 3661 arı ailəsinin və 8569 baş xırdabuynuzlu heyvanın köçürülməsi həyata keçirilib. Laçın rayonunun ərazisində arı ailələrinin yerləşdirilməsi məqsədilə monitorinq aparılıb və Ağcabədi, İsmayıllı, Qax rayonlarında məskunlaşan Laçın rayonundan olan fermerlərə məxsus 531 arı ailəsinin köçürülməsi həyata keçirilib.

İşğaldan azad edilmiş ərazilərdə turizm resurslarının qiymətləndirilməsinin təşkili ilə bağlı Andorranın PGİ və Türkiyənin İNOVA şirkətləri ilə danışıqlar aparılıb. Avqustun 1-də Dövlət Turizm Agentliyinin əməkdaşlarının Şuşa şəhərinə səfəri planlaşdırılır. Səfər müddətində Daşaltının turizm imkanları qiymətləndiriləcək.

Təqdim olunan hesabatlar işçi qrupunun üzvləri tərəfindən geniş müzakirə olunub və qərarlar qəbul edilib.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# Ekoloji Məsələlər üzrə İşçi Qrupunun iclasında aparılmış monitorinqlərin nəticələri müzakirə olunub

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji Məsələlər üzrə İşçi Qrupunun növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin və digər müvafiq dövlət qurumlarının məsul nümayəndələri iştirak ediblər.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində hərbi-siyasi, sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli ilə bağlı Fəaliyyət Planı" üzrə aidiyyəti qurumlar tərəfindən ekoloji vəziyyətin qiymətləndirilməsi məqsədilə işğaldan azad edilmiş rayonlarda aparılan kompleks monitorinqlər, o cümlədən transsərhəd çayların çirklənməsinə nəzarət edilməsi və radioekoloji vəziyyətin qiymətləndirilməsi məqsədilə aparılan monitorinqlər haqqında qrup üzvlərinə məlumat verilib. Həmçinin Fəaliyyət Planının icrası ilə bağlı aidiyyəti qurumların nümayəndələri tərəfindən məlumatlar verildi, tədbirlərin icrası zamanı qarşıya çıxan məsələlərin həlli istiqamətində müzakirələr aparıldı.

Ətraf mühitə və təbii sərvətlərə vurulmuş zərərlə bağlı qanunvericiliyə uyğun qiymətləndirmələr aparılır. Zəngilan və Cəbrayıl rayonları üzrə araşdırma materialları hüquqi qiymət verilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna təqdim edilib, hazırda Füzuli rayonu haqqında arayış hazırlanır.

Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərindəki şəhər və qəsəbələrin Baş planının hazırlanması məqsədilə Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Kəlbəcər, Qubadlı şəhərlərində, bu rayonların kəndlərində və Hadrut qəsəbəsində "Dron" uçuş aparatı vasitəsilə 187,16 kvadratkilometr ərazinin fotoçəkilişləri aparılıb, 1:1000-1:2000 miqyasda ortofotoplanlar və rəqəmsal topoqrafik planlar hazırlanaraq Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təhvil verilib.

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Rəqəmsal Geoloji İnformasiya Sisteminə qoşulmalı olan qurumlar tərəfindən görülmüş işlər və bununla bağlı planlaşdırılan təlimlər haqqında qrupun üzvlərinə məlumat verildi, çatışmazlıqların aradan qaldırılması tövsiyə olundu.

İşğaldan azad edilmiş ərazilərdə yanğın hadisələri haqqında Fövqəladə Hallar Nazirliyinin məlumatında iyun ayı ərzində 116 belə hadisənin baş verdiyi qeyd olundu. Qərargahın tapşırığı və görülən tədbirlər nəticəsində iyul ayında yanğın hadisələrinin sayının 60-a endiyi və bu işlərin daim nəzarətdə saxlanılmasının vacibliyi vurğulandı.

Qarabağın işğaldan azad edilmiş ərazilərində hidroloji obyektlərin Coğrafi İnformasiya Sistemləri (CİS) bazasında, Azərsky və "Dron" çəkilişləri əsasında elektron xəritəsinin yaradılması işləri davam edir. Çaylar üzərində quraşdırılacaq yeni avtomat hidroloji cihazların yerlərinin dəqiqləşdirilməsi işləri yekunlaşdırılıb, çaylarda sululuğun ölçülməsi və çirklənmə vəziyyətinin müəyyənləşdirilməsi, o cümlədən Zəngilan rayonunun ərazisindən axan Oxçuçay çayının kəmiyyət və keyfiyyət göstəricilərinə analitik nəzarət davam edir.

Qrup fəaliyyətini İdarələrarası Mərkəzin digər işçi qrupları ilə sıx əlaqə və məlumat mübadiləsi formatında həyata keçirməkdədir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

◆ Müəllifi İlham Əliyevdir

# İşlər asan, xidmət şəffaf, vətəndaş məmnunluğu yüksək

Prezident İlham Əliyevin bir il öncə açılışını etdiyi Balakən "ASAN xidmət" Mərkəzi ötən müddətdə 100 min vətəndaşın müraciətini qəbul edib





















Əvvəli 1-ci səh.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyev deyir ki, mərkəzdə dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 320-dən çox xidmət göstərilir. Fəaliyyət göstərdiyi bir il müddətində Balakən regional "ASAN xidmət" Mərkəzində 100 minə yaxın müraciət qeydə alınıb.

Onu da qeyd edək ki, şimal-qərb zonasında bir neçə "ASAN xidmət" mərkəzi fəaliyyət göstərdiyi üçün Balakəndə bu xidmətin açılışı nəzərdə tutulmurdu. Ancaq Prezident İlham Əliyevin göstərişi ilə bu rayonda da yeni mərkəz açıldı. Bu, sayca ölkəmizdə 20-ci mərkəz oldu.

Bunu dövlət başçısı açılış mərasimində "ASAN könüllüləri" ilə keçirdiyi görüşdə də söyləmişdi: "Əvvəlki mərhələdə burada "ASAN xidmət" mərkəzinin tikintisi nəzərdə tutulmurdu. Çünki şimal-qərb zonasında artıq bir neçə mərkəz var. Adətən, birinci mərhələdə hər bir mərkəz dörd, beş, altı rayonun əhalisini əhatə edir. Bu mərkəzdə isə cəmi üç rayon əhatə olunur - Balakən, Zaqatala və Qax. Bir daha demək istəyirəm ki, bu mərkəz mənim xüsusi tapşırığım əsasında inşa edilib. Artıq balakənlilərin sərəncamına gözəl bir mərkəz verilibdir".

## Operativlik, şəffaflıq prinsipləri hər zaman prioritetdir

Mərkəzin inzibati binası fərqli xarici üslubu ilə yanaşı, daxili interyeri, genişliyi, son dərəcə təmizliyi ilə də ilk andan insanda xoş ovqat yaradır. Mərkəzə daxil olarkən diqqəti çəkən ilk məqam dezinfeksiya qaydalarına ciddi əməl edilməsi olur. Xüsusi aparatla hərarət yoxlanılır, əllər spirtlənir. Məlumat mərkəzində xidmət göstərən əməkdaşlar tibbi maskadan istifadə etməklə bir-birindən aralı dayanırlar.

Elə ilk addımından şəffaf və operativ xidmət məkanına düşdüyünü başa düşən vətəndaşı girişdə gülərüz və mehriban personal qarşılayaraq ilk lazım olan informasiyanı verir. Vətəndaşların sənədlərini yoxladıqdan sonra onlara hansı xidmət üçün müraciət etməli olduqlarını aydınlaşdırırlar. Beləcə, hər kəs asanlıqla istənilən xidmətdən yararlana bilir. Və təbii ki, vətəndaşın mərkəzin inzibati binasına daxil olmasından başlayan bütün proseslər koronavirus təhlükəsi səbəbindən sosial məsafənin gözlənilməsinin tələblərinə əməl edilməklə həyata keçirilir.

Vətəndaşların qəbulu işi sektorunun baş mütəxəssisi Şəhriyar Əliyev deyir ki, fəaliyyət göstərdikləri bir il müddətində vətəndaş məmnunluğunun təmin olunması, hər kəsə operativ xidmət göstərilməsi prinsiplərinə sadiq qalıblar: "Əlimizdən gələni edirik ki, vətəndaşlar xidmətimizdən məmnun qalsınlar. Əməkdaşlar yorulmadan, təmkinlə hər bir vətəndaşı dinləyir, onlara istiqamət verirlər. Operativlik, şəffaflıq prinsipləri qorunmaqla bütün proseslər uğurla icra edilir. İşimizi sevirik və "ASAN xidmət" əməkdaşları olmağımızla qürur duyuruq".

Mərkəzin daxilində vətəndaşların istirahəti üçün nəzərdə tutulmuş "ASAN kafe" fəaliyyət göstərir. Uşaqların əyləncəsi üçün əyləncə guşəsi də mövcuddur.

Ümumiyyətlə, "ASAN xidmət" mərkəzləri vətəndaş rahatlığı üçün həyat standartlarının yaxşılaşdırılmasına xidmət edən müxtəlif sahələri əhatə edir və insanlar tərəfindən çox xoş qarşılanır. Mərkəzə müraciət edən vətrəndaşlarla etdiyimiz söhbətlər zamanı da buna şahidlik edirik.

Rayon sakini Tələt Hüseynov deyir ki, əvvəllər çox çətinliklər çəkiblər, amma son bir ildə işləri çox asanlaşıb: "Rayonumuzda belə xidmət yox idi. Banklarda, poçtlarda növbə gözləyirdik. İndi nə işimiz oldu, bu mərkəzə gəlib tez bir zamanda həll edirik. Bank işim var idi. Cəmi 10 dəqiqə çəkdi. Sağ olsun Prezidentimizi ki, Balakəndə də "ASAN xidmət" Mərkəzi açdı və bizə çox böyük kömək etdi. Çox məmnunuq".

Ağsaqqal Alı Namazov "Azərişıq" ASC-yə müraciət etmək üçün xidmətə baş vurub. O, mənzilin elektrik enerjisi ilə təminatı məsələsini rahatlıqla həll edib xoş təəssüratlarla buradan ayrılırdı: "Mənzilimizə elektrik xəttinin çəkilməsi, sayğacın quraşdırılması ilə bağlı müraciət etmişdik. Çox rahat şəkildə həll olundu. Dövlət rüsumunu ödədik, sənədlərimizi hazırlayıb verdilər. Əvvəllər bütün günü növbələrdə qalırdıq, hərdən süründürməçilik olurdu. Sağ olsun Prezidentimiz, bizi bu problemlərdən qurtardı. Hər kəs burdan ayrılanda Prezident İlham Əliyevə alqış edir. Çünki xalq rahat yaşayanda hər şey asan, hər iş qaydasında olur".

Nürəddin Mehdiyev isə ümumvətəndaşlıq pasportunun dəyişdirilməsi üçün xidmətə müraciət edib. Rayon sakini hesab edir ki, ölkəmizdə "ASAN xidmət" mərkəzlərinin fəaliyyətə başlaması ilə, həqiqətən, inqilabi yenilik reallaşıb. Hər kəs bu xidmətdən razılıq edir: "Hələ eşitməmişəm ki, bir insan "ASAN xidmət"dən narazılıq etsin. Əvvəllər pasport, şəxsiyyət vəsiqəsi alanda günlərlə gözləyirdik. Bəzən sənədləri vaxtında vermirdilər. Vaxt itkisi olurdu. Amma indi hər iş çox asanlaşıb. İçəri daxil olanda səni gülərüzlə qarşılayırlar, istiqamət verirlər, rahat şəkildə sənədləri təqdim edib istənilən xidmətdən yararlana bilirsən. Vallah, bundan yaxşı xidmət olmaz. Adam "ASAN xidmət" mərkəzinə gələndə sanki istirahət edir".

## "ASAN könüllüləri" - Azərbaycan gəncliyinin siması

Burada işçilərin hamısı, demək olar ki, gəncdir. Bu da, həqiqətən, Azərbaycan gəncliyinin simasıdır. Son illərdə minlərlə gənc "ASAN xidmət"də çalışıb, təcrübə qazanıb. Könüllülər hərəkatı da məhz "ASAN xidmət" mərkəzlərində başlayıb.

Fəaliyyət dövründə Balakən "ASAN xidmət" Mərkəzində 151 könüllü çalışıb. Bunlardan 128-i məzun, 23-ü cari könüllüdür. Bundan başqa, məzun könüllülərdən 1 nəfər "ASAN könüllü" təşkilatının nümayəndəsi kimi, 2 nəfər "Yaşıl ASAN"ın nümayəndəsi kimi, 5 könüllü isə "Master-2" pilləsində fəaliyyətlərini davam etdirir.

Gənclərdən Aytac Balagözova artıq bir ildir ki, bu mərkəzdə fəaliyyət göstərir. Baş mütəxəssis deyir ki, bu mərkəzdə çalışmaq ilk növbədə onun həyatında dönüş yaradıb. Həmçinin bir il ərzində vətəndaşlarla xoş ünsiyyətdə olmaq, həm də könüllü kimi xidmət göstərmək onlara həyat təcrübəsi qazandırıb: "Əvvəllər Balakəndə belə mərkəzin açılmasına çox ehtiyac var idi. Çünki rayon sakinləri digər ərazilərdəki xidmətlərə müraciət etmək məcburiyyətində qalırdılar. Bu da həm vaxt itkisi, həm də əlavə xərclərin yaranmasına səbəb olurdu. İndi vətəndaşlar bir mərkəz daxilində problemlərini asanlıqla həll edir və xidmətdən məmnun qalırlar. Bu xidmətin bir parçası olmaq bizim üçün qürurvericidir ki, vətəndaşlara yardım edirik, onlara operativ xidmət göstəririk".

Aytac Balagözova xidmətin açılışı zamanı Prezident İlham Əliyevin gənclərlə keçirdiyi görüşdə də çıxış edib. Deyir ki, indi də həmin görüşü xatırlayanda sevincindən gözləri yaşarır: "Bu elə bir hissdir ki, sözlə ifadə edə bilmirəm. Dövlət başçısını yaxından görmək, ünsiyyətdə olmaq çox qürurvericidir. O gün mənim həyatımın ən yaddaqalan günüdür. Hər xatırlayanda gözlərim dolur. Çünki belə bir görüş hər adama nəsib olmur. Cənab Prezident çıxış etdi, Azərbaycan gəncliyinin bugünkü fəaliyyətini çox yüksək qiymətləndirdi. Bu da bizi, həqiqətən, çox fərəhləndirdi və daha da məsuliyyətli, operativ işləməyimizə stimul verdi. "ASAN könüllü"sü, həm də "ASAN xidmət" mərkəzinin əməkdaşı kimi Prezident qarşısında söz verdim ki, dövlətimizin inkişafı naminə qazandığımız təcrübədən yararlanaraq əlimizdən gələni etməyə çalışacaq və vətəndaşlarımıza layiqincə xidmət göstərəcəyik. Bu gün xoşməramlı missiyamızı uğurla davam etdiririk və işimizlə qürur duyuruq".

Nurlan Telliyev isə yeni könüllüdür. Bir aydır ki, könüllü kimi fəaliyyət göstərən Nurlanın sözlərinə görə, bu qısa müddətdə kifayət qədər təcrübə toplaya bilib. Deyir ki, könüllü kimi vətəndaşlara kömək göstərmək, onların sənədlərinin qaydaya salınması işində yardımçı olmaq və buna görə xoş sözlər eşitmək ona əlavə impuls verir: "İnsanlar üçün ərizələr yazırıq, digər sənədlərinin hazırlanmasına yardım göstəririk, ünsiyyət qururuq. Bunların hamısı gələcək karyeram üçün çox önəmli proseslərdir. Çox sevincliyəm ki, 18 yaşımda mən də "ASAN könüllü"süyəm".

Gülçin İbrahimova da könüllüdür. Öz işindən çox razıdır və burada könüllü kimi çalışmaqdan çox məmnundur: "Çünki insanlara kömək etmək böyük savabdır. Bizlər də gənc yaşımızda belə xoş işlərlə məşğul olduğumuz üçün sevinirik, həm də təcrübə toplayırıq. Bacardığımız bütün işlərlə vətəndaşlara yardım edirik, onların işlərinin asanlaşması prosesində kömək göstəririk. İndi bizim həm insanlarla ünsiyyət qurmaq bacarığımız, həm də dostlarımızın sayı artıb".

Göründüyü kimi, gənclər böyük həvəslə, qürurla vətəndaşların xidmətindədirlər. Bu günün "ASAN könüllü"sü sabahın baş mütəxəssisi, peşəkar kadr potensialı hesab olunur. Belə gənclərimizin sayı getdikcə çoxalmaqdadır.

Bir ildir fəaliyyət göstərən Balakən "ASAN xidmət" Mərkəzi gülərüz kollektivi və könüllüləri ilə vətəndaşların xidmətindədir. Bu mənzərəyə şahidlik etmək bizdə də xoş təəssüratlar yaratdı və bir yaşı tamam olan mərkəzin kollektivinə uğurlar arzulayaraq kompleksdən ayrıldıq.

## İctimai xidmətlər sahəsində inqilabi dəyişiklik edən Azərbaycan brendi

Ümumiyyətlə, sirr deyil ki, Prezident İlham Əliyevin müəllifi olduğu "ASAN xidmət"in yaradılması ictimai xidmətlər sahəsində inqilabi dəyişiklik sayılır. Eyni zamanda bu, yeni davranış qaydalarının tətbiq edilməsi deməkdir.

Əvvəllər xidmət sektoru problemli sahə idi. Həm pozuntular olurdu, həm diqqətsizlik, həm də vətəndaşlara bir çox hallarda hörmətsizlik edilir, laqeyd münasibət göstərilirdi. Vətəndaşlar onlara çatacaq sənədləri, arayışları günlərlə, həftələrlə ala bilmirdilər, yaxud da ki, onlardan nə isə qanunsuz tələblər olurdu. Ona görə də Prezidentin söylədiyi kimi, ictimai xidmətlər sahəsində "ASAN xidmət"in xətti ilə aparılan islahatlar nəinki bu sahəni nümunəvi sahəyə çevirdi, eyni zamanda, cəmiyyətdəki münasibətlərə müsbət təsir göstərdi.

İlham Əliyevin şəxsi təşəbbüsü ilə yaradılan və 2013-cü ildə 5 mərkəz, 2 səyyar avtobusla xidmətə başlayan "ASAN xidmət" 2021-ci ildə 20 xidmət mərkəzi, 1 qatar və 10 səyyar avtobusla fəaliyyətini davam etdirir.

Hazırda ölkəmizdə 20 "ASAN xidmət" mərkəzi mövcuddur. Onlardan 5-i paytaxt Bakıda, digər 15-i isə regional mərkəzlər olmaqla Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Quba, Masallı, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndədir. Keçirilən rəy sorğularına əsasən, vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,5 faiz təşkil edir.

Prezidentin də söylədyi kimi, Azəbaycanın intellektual məhsulu olan bu mərkəzlər vətəndaş məmnunluğuna xidmət edir. Artıq Azərbaycan həm də intellektual məhsulunu ixrac etməkdədir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Sarsılmaz və möhtəşəm birliyin təcəssümü

## Azərbaycan-Türkiyə-Pakistan münasibətləri yeni yüksəliş mərhələsinə qədəm qoyur



**İkinci Qarabağ müharibəsindəki şanlı qələbə regionun siyasi və iqtisadi mənzərəsini müsbətə doğru dəyişib. Məhz buna görə də qalib Azərbaycan dövləti postmüharibə dövrünün reallıqlarına uyğun düşünülmüş addımlar atır.**

Yeni reallıqlar fonunda dost və tərəfdaş ölkələrlə münasibətlər daha da gücləndirilir, bu istiqamətdə əməkdaşlıq platformaları yaradılır. Bütün bunlar isə bir məqsədə xidmət edir: regionda davamlı sülhün təmin edilməsi və açılacaq Zəngəzur dəhlizinin imkanlarından səmərəli istifadə olunması.

İyunun 15-də mədəniyyət paytaxtımız Şuşada Azərbaycan və Türkiyə prezidentlərinin imzaladığı Şuşa Bəyannaməsi, iyulun 27-də Azərbaycan-Türkiyə-Pakistan parlament sədrlərinin imzaladığı Bakı Bəyannaməsi də bu prosesin tərkib hissəsidir. Bu sənədlər bir daha təsdiqləyir ki, üç dost ölkənin yaratdığı platforma ilə Avrasiyada yeni iqtisadi-siyasi və hərbi güc birliyi formalaşdırılır.

## Qardaşlıq nümunəsi və regionda sülhün təminatçısı

Şuşa Bəyannaməsi təkcə Qarabağ bölgəsinin və ya Azərbaycan-Türkiyə münasibətlərinin deyil, eyni zamanda bütün regionun gələcək inkişaf perspektivlərini müəyyən edə biləcək mükəmməl bir razılaşmadır.

Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın birbaşa təşəbbüsü ilə imzalanmış Şuşa Bəyannaməsi nəinki Ermənistanla Azərbaycan arasında, eləcə də bütün regionda sülhün təminatçısına çevriləcək. Onun yaradacağı yeni iqtisadi əlaqələr, Azərbaycanla Türkiyə arasında daha da möhkəmlənən tərəfdaşlıq, qardaşlıq əlaqələri bütün bölgənin xilasıdır.

Azərbaycanla Türkiyə arasında əlaqələr uzun illərdir sürətlə inkişaf edir. Dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın ikinci dövlət yoxdur. Eyni kök, adətlər, oxşar mədəniyyət, dil, din Azərbaycan Türkiyə əlaqələrini şərtləndirən mühüm amillərdir. Türkiyə və Azərbaycan öz tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olduqlarını nümayiş etdirmişlər.

Atılan qəti addımlar sayəsində Azərbaycan-Türkiyə qardaşlığı və əməkdaşlığının bütün sahələr üzrə dönmədən inkişaf etdirilməsi İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın dövlətlərarası səviyyədə olduğu kimi, şəxsi münasibətlər zəminində də əsl qardaşlıq nümayiş etdirmələrinin əməli göstəricisidir.

Prezident İlham Əliyev ən müxtəlif beynəlxalq tədbirlərdə həmişə birmənalı şəkildə Türkiyənin problemlərinin həllində qardaş ölkəyə birmənalı şəkildə dəstək verməyin əsl örnəyini nümayiş etdirib. İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, bu gün dünyada Azərbaycan və Türkiyə dövlətləri kimi əsl qardaş ölkələr göstərmək mümkün deyil.

44 günlük Vətən müharibəsində Türkiyənin Azərbaycana mənəvi və siyasi dəstəyi əvəzedilməz, əsl qardaş dəstəyi idi.

İki dost ölkə xoş gündə də, dar gündə də bir-birinə böyük dəstək göstərir. Elə bu günlərdə qardaş ölkədə baş verən təhlükəli yanğınlar bütün Azərbaycanı sarsıtdı. Azərbaycan hər zaman olduğu kimi bu dəfə də qardaş ölkəyə yardım əlini uzatdı və bu gün Türkiyənin yanındadır.

Bir sözlə, sevincdə də, kədərdə də bir olan Türkiyə və Azərbaycana bütün dünya qibtə ilə baxır.

## Örnək tərəfdaşlıq platforması

Bu bir reallıqdır ki, son illər müsəlman ölkələri davamlı olaraq ikili standartlar və ədalətsiz mövqe ilə üzləşirlər. Bu baxımdan müsəlman ölkələri arasında birlik və həmrəyliyin gücləndirilməsi xüsusi önəm daşıyır. Azərbaycan, Türkiyə və Pakistan parlament rəhbərləri arasında imzalanan Bakı Bəyannaməsi də bu məqsədə xidmət edir.

Üç dost ölkənin bir araya gəlməsində təşəbbüskar olan Azərbaycan dialoqlararası məkan olaraq, bu dəfə də xoşməramlı niyyətini ortaya qoydu. Əlbəttə ki, bu, dövlətlərarası münasibətlərdə xüsusi rol oynayan dostluq, qardaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsinə, strateji tərəfdaşlıq əlaqələrinin gücləndirilməsinə müsbət təsirini göstərəcək.

Müasir dövrdə Azərbaycan, Türkiyə və Pakistan nümunəvi əməkdaşlıq modelini uğurla inkişaf etdirirlər. Bakı Bəyannaməsi isə bu əlaqələrin daha da inkişaf etdirilməsinə real zəmin yaradacaq. Üç ölkə arasındakı münasibətlər dostluq və qardaşlıq əsasında formalaşıb. Təməli qoyulan üçtərəfli parlamentlərarası əməkdaşlıq formatı tarixi əhəmiyyətə malik dostluq, qardaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsinə, strateji tərəfdaşlıq əlaqələrinin gücləndirilməsinə əlavə təkandır.

Bakı Bəyannaməsi həm də strateji əhəmiyyət kəsb edir. Bu Bəyannamə dövlətlərarası qarşılıqlı hörmət və etimad əsasında mövcud əlaqələrin inkişafında xüsusi rol oynayacaq. Qardaş xalqları daha da yaxınlaşdırmaq üçün həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə parlamentlərarası dialoq və əməkdaşlığını inkişaf etdirməyə yönələn səyləri qətiyyətlə bəyan edir. Bəyannamədə mövcud əlaqələri gücləndirmək və daimi komitələrin, dostluq qruplarının və parlamentlərin inzibati heyət arasında ünsiyyəti inkişaf etdirmək öhdəlikləri diqqətə çəkilib. Tərəflər beynəlxalq anlaşılmazlıqların həllində, sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində ikitərəfli və çoxtərəfli parlamentar əlaqələrin rolunu vurğulayıblar.

Bu birlik daha böyük və geniş layihələrin reallaşmasına əsas olacaq, dövlətlərarası müxtəlif sahələri əhatə edən işbirliyinin uğurla davam etdirilməsinə böyük töhfə verəcək.

Üç ölkənin parlament rəhbərlərinin Şuşaya, Füzuliyə səfəri isə həm Ermənistana, həm də dünyaya bir daha mesaj oldu. Məğlub Ermənistan gördü ki, artıq Qarabağda təxribatlar törətməklə heç nəyə nail ola bilməyəcək. Ən doğru seçim Azərbaycanla hesablaşmaqdır. Zəngəzur dəhlizinin açılması isə bu ölkənin fəlakətdən qurtuluşuna yardımçı ola bilər.

Bir sözlə, Azərbaycan, Türkiyə və Pakistanın müttəfiqliyi hər üç ölkənin, eyni zamanda bəşəriyyətin mənafeyinə xidmət edir. Bütövlükdə bu üç ölkənin son illərdə daha da möhkəmlənən çoxşaxəli əməkdaşlığı Avrasiyada yeni aparıcı güc mərkəzinin formalaşmasını şərtləndirir.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan Dillər Universitetində Pakistan mədəniyyət mərkəzi açılıb

İyulun 31-də Azərbaycan Dillər Universitetində (ADU) Pakistan mədəniyyət mərkəzinin açılışı olub.



AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən ADU-nun rektoru akademik Kamal Abdulla Pakistanın Azərbaycanda ilk mədəni məkanı olan mərkəzin açılmasının pakistanlı və azərbaycanlı gənclər, eyni zamanda, hər iki ölkənin alimləri üçün çox səmərəli fəaliyyətin başlanğıcı olacağını vurğulayıb. Rektor diqqətə çatdırıb ki, 2020-ci il Azərbaycan xalqı üçün sınaq ili oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımız bu sınaqdan uğurla çıxdı. 44 günlük Vətən müharibəsini zəfərlə başa vurduq. Torpaqlarımız işğaldan azad edildi, ərazi bütövlüyümüz bərpa olundu. Bu çətin sınaq dövründə bir çox qardaş ölkələr bizim yanımızda oldu. Bu dövlətlər arasında Pakistan ön sıralarda idi. Azərbaycan xalqı Pakistanın bu qardaşlığını heç vaxt unutmayacaq.

Akademik Kamal Abdulla diqqətə çatdırıb ki, Azərbaycan gəncləri mərkəzdə Pakistanın mədəniyyəti, adət-ənənələri ilə yaxından tanış olacaqlar. Pakistan xalqını daha yaxşı tanıyacaqlar, Pakistana olan sevgiləri daha da artacaq: "ADU və Pakistanın Xarici Dillər Universiteti arasında əməkdaşlıq əlaqələri qurulmasına başlanılıb. Arzu edirik ki, yaxın zamanlarda Pakistanın Xarici Dillər Universitetində də Azərbaycan mədəniyyət mərkəzi yaradılsın. İnanıram ki, bu işdə Pakistan tərəfi bizə öz dəstəyini göstərəcək".

Rektor ADU-da Pakistan mədəniyyət mərkəzinin yaradılmasında əməyi keçən hər kəsə təşəkkürünü bildirib.

Pakistanın Azərbaycandakı səfiri Bilal Haye qeyd edib ki, mərkəz azərbaycanlıların Pakistanın mədəniyyəti, adət-ənənələri haqqında məlumatlandırılmasında mühüm rol oynayacaq. İstərdik ki, mərkəzin fəaliyyəti daha da inkişaf etdirilsin və gələcəkdə fakültə kimi fəaliyyət göstərsin.

Səfir vurğulayıb ki, Pakistan gəncləri Azərbaycan gəncləri kimi Qarabağı öz ürəklərində hiss edirlər. Biz sevinirik ki, Qarabağ işğaldan azad edilib. Arzu edirəm ki, Azərbaycan gəncləri də Kəşmiri öz ürəklərində hiss etsinlər və tezliklə Kəşmirin azadlığını Azərbaycanla birlikdə qeyd edək.

Pakistan Milli Assambleyasının Sədri Əsəd Qeysəri Pakistan mədəniyyət mərkəzinin açılmasının əhəmiyyətindən bəhs edib. O bildirib ki, mərkəzin fəaliyyətinin daha da genişləndirilməsi istiqamətində lazım olan kömək göstəriləcək. İnanıram ki, mərkəz Azərbaycan-Pakistan mədəni əlaqələrinin qurulmasında mühüm rol oynayacaq: "Azərbaycan Respublikasının təhsil naziri ilə görüşdük. Görüş zamanı Azərbaycan və Pakistan arasında təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi apardıq. Pakistan və Azərbaycan universitetləri arasında əməkdaşlıq əlaqələri, tələbə mübadiləsi genişləndiriləcək. Diplomların qarşılıqlı tanınması istiqamətində mühüm addımlar atılacaq".

Tədbirdə Azərbaycanın Pakistana yeni təyin olunmuş səfiri Xəzər Fərhadov, Azərbaycan-Pakistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Qənirə Paşayeva, Bakı Slavyan Universitetinin rektor əvəzi, Təhsil Nazirliyinin nümayəndəsi Anar Nağıyev, Milli Məclisin deputatları iştirak ediblər.

Tədbir iştirakçıları Pakistan mədəniyyət mərkəzi ilə tanış olublar. Pakistan haqqında videoçarx təqdim edilib.

# *XİN:* "Ermənistan beynəlxalq hüquqa zidd mövqe nümayiş etdirir, üçtərəfli bəyanatların icrasına maneə törədir"

*Ermənistan XİN-in 2021-ci il 30 iyul tarixli açıqlaması Azərbaycana qarşı növbəti cəfəng və yalan ittihamları əks etdirir. 30 ilə yaxın Azərbaycana qarşı təcavüzkar siyasəti həyata keçirən Ermənistan bu gün də beynəlxalq hüquqa zidd mövqe nümayiş etdirir, iki dövlətin sərhədinin delimitasiyası prosesinə yox deyir, üçtərəfli bəyanatların icrasına maneə törədir.*

AZƏRTAC xəbər verir ki, bu sözlər Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayevanın Ermənistan XİN-in 30 iyul tarixli açıqlamasına dair şərhində yer alıb.

"Deeskalasiya istəyən ölkə nə üçün sərhədboyu Azərbaycan mövqelərini davamlı atəşə tutur? Niyə sərhəd məsələsinin dialoq yolu ilə həlli çağırışlarına qarşılıq vermir?!

Cavabı bizə bəllidir, çünki Ermənistan Azərbaycana qarşı hələ də ərazi iddiaları ilə çıxış edir, Azərbaycanın beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüyünü bərpa etdiyini qəbul etmək istəmir. Ermənistan tərəfinin diqqətinə çatdırırıq ki, bölgədə sülhün təmin olunması ölkələrin suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığı prinsiplərinə riayət olunması əsasında həyata keçirilə bilər. Dayanıqlı sülh yalnız beynəlxalq hüquqa hörmət əsasında təmin oluna bilər. Azərbaycan artıq 30 ildir ki, bu mövqeyi bəyan edir və onu rəhbər tutur" , - deyə Leyla Abdullayeva qeyd edib.

## *Müdafiə Nazirliyi:* "Bölmələrimizin guya Arazdəyən istiqamətinə atəş açması barədə Ermənistanın yaydığı məlumat əsassızdır"

Azərbaycan Ordusunun bölmələrinin guya Arazdəyən istiqamətinə atəş açması ilə bağlı Ermənistan tərəfinin yaydığı məlumatın heç bir əsası yoxdur.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Nazirliyin məlumatında bildirilib ki, Azərbaycan Ordusunun bölmələrindən qarşı tərəf istiqamətinə atəş açılmayıb.

## *Azərbaycan MN:* "Ordumuzun hərbi qulluqçusunun həlak olması ilə bağlı araşdırma aparılır"

Azərbaycan Ordusunun hərbi qulluqçusu əsgər Aslanov Şamil Mais oğlu ilkin ehtimala görə silahla davranış qaydalarının kobud şəkildə pozulması nəticəsində həlak olub.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Nazirliyin məlumatında bildirilib ki, faktla bağlı araşdırma aparılır.

# Yaponiya, İspaniya, İtaliya, Bolqarıstan və İordaniyadan olan jurnalistlər Şuşada





İyulun 31-də Yaponiya, İspaniya, İtaliya, Bolqarıstan və İordaniyadan olan jurnalistlər işğaldan azad edilmiş ərazilərə səfər çərçivəsində Şuşada olublar.




AZƏRTAC xəbər verir ki, Şuşa ilə tanışlıq tarixi Şuşa Bəyannaməsinin imzalandığı ərazidən və qədim Mərdinli məhəlləsindən başlanılıb.

Qonaqlara görkəmli bəstəkar, musiqişünas, ictimai xadim Üzeyir bəy Hacıbəyli, şairə, rəssam və ictimai xadim Xurşidbanu Natəvan, Xalq artisti Bülbülün güllələnmiş heykəllərini ziyarət edən jurnalistləri bu dahi şəxsiyyətlərin həyat və yaradıcılıqları haqqında məlumat verilib. Bildirilib ki, işğal illərində ermənilər həmin heykəlləri Ermənistana apararaq əritmək istəyiblər. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə heykəllər öz əvvəlki yerinə qaytarılıb.

Sonra qonaqlar şəhərdəki Saatlı, Aşağı və Yuxarı Gövhərağa məscidlərində olublar. Məlumat verilib ki, 30 illik işğal dövründə dini abidələr, o cümlədən bu məscidlər erməni vandallığına məruz qalıb. Şuşa işğaldan azad olunandan dərhal sonra bu məscidlərdə təmir-bərpa işlərinə başlanılıb.

Daha sonra Pənahəli xanın sarayının qalıqları olan əraziyə baxış keçirilib. Xarici media nümayəndələrinə Pənahəli xanın sarayının tarixi haqqında məlumat verilib, işğal dövründə sarayın erməni vandallığına məruz qaldığı bildirilib. Jurnalistlər sarayın qalıqlarına baxıb, erməni vəhşiliyinin izlərinin şahidi olublar. Qeyd edilib ki, hazırda kompleksdə bərpa işləri aparılır.

Media nümayəndələrinin Şuşa ilə tanışlığı Qala divarlarının qarşısında davam edib. Bildirilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, alınmazlıq simvolu olub. İşğal dövründə qala divarları baxımsızlığa və dağıntılara məruz qalıb. Şuşa İşğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

"Şuşa" qəzetinin fəaliyyət göstərdiyi bina ilə tanışlıq zamanı jurnalistlərə tikili haqqında ətraflı məlumat verilib.

Yaponiya, İspaniya, İtaliya, Bolqarıstan və İordaniyadan gəlmiş jurnalistlər Cıdır düzündə də olublar. Media nümayəndələri Cıdır düzündən ətrafa açılan əsrarəngiz mənzərəni seyr ediblər.

Xarici jurnalistlərin Şuşa şəhəri ilə tanışlığın son dayanacağı Qazançı kilsəsi olub. Onlara burada aparılan təmir-bərpa işləri barədə məlumat verilib. Qeyd olunub ki, işğaldan azad olunan ərazilərimizdə Azərbaycan dövləti tərəfindən həyata keçirilən nəhəng yenidənqurma işləri, o cümlədən Şuşada aparılan bərpa və quruculuq prosesi Şuşanın orijinal memarlıq üslubuna uyğun olaraq gerçəkləşdirilir. Həyata keçirilən işlər çərçivəsində Qazançı kilsəsi də bərpa edilir. Bu kilsənin 1868-1887-ci illərdə qədim zərdüşt məbədi üzərində inşa olunduğu diqqətə çatdırılıb.

Bununla da xarici jurnalistlərin Şuşaya səfəri başa çatıb.

Qeyd edək ki, media nümayəndələri Şuşadan sonra Gəncə şəhərinə və Ağdam rayonuna səfər edəcəklər.

# Xarici jurnalistlər Ağdamda erməni vəhşiliyinin izlərini öz gözləri ilə görüblər





Yaponiya, İspaniya, İtaliya, Bolqarıstan və İordaniyadan olan jurnalistlər işğaldan azad edilmiş ərazilərimizə səfərləri çərçivəsində iyulun 31-də Ağdam rayonunda olublar.



AZƏRTAC xəbər verir ki, xarici media nümayəndələri Ağdamın tarixi, hazırkı vəziyyəti, ermənilərin rayonda törətdikləri dağıntılar, eləcə də tarixi, dini və mədəni abidələrimizin vandalizmə məruz qalması, həmçinin rayonda həyata keçiriləcək quruculuq işləri barədə ətraflı məlumatlandırılıb.

Bildirilib ki, Ermənistan tərəfindən işğal edilənədək Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən biri olub. Burada sənaye və kənd təsərrüfatı inkişaf etmişdi. Ermənilər 1993-cü il iyulun 23-də Ağdamı işğal etdikdən sonra şəhərdə və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Ağdamda qəbiristanlıqlar, tarixi-mədəni abidələr də erməni vandalizminə məruz qalıb. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən biri olan Ağdamdan indi, sadəcə, talan edilərək viranəyə çevrilmiş xarabalıqlar qalıb.

Diqqətə çatdırılıb ki, ötən ilin payızında Azərbaycan Ordusunun 44 günlük müharibədə qazandığı Zəfər nəticəsində Ağdam da işğaldan azad edilib. İndi Ağdamın yeni bərpa, quruculuq dövrü başlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdama səfəri zamanı avtomobil yolunun, ilk yaşayış binasının, Sənaye Parkının, 1 nömrəli məktəbin yeni binasının təməlini qoyub, meşəparkda ağac əkib.

Ağdamın yeni Baş planına əsasən, şəhərin ərazisi 1750 hektar, şəhərətrafı bağlar 2450 hektar olacaq. Burada ağıllı və dayanıqlı sosial infrastruktur yaradılacaq. Şəhərdə 15 ədəd məktəb və uşaq bağçasının inşası nəzərdə tutulub. Məktəb və uşaq bağçalarının əhatə dairəsi 500 metr təşkil edir. Ağdamda ilkin olaraq şəhər sakinləri və qonaqlar üçün 125 hektarlıq böyük meşə parkı salınacaq. Həmçinin Ağdamda Sənaye Parkı da yaradılacaq.

Xarici media nümayəndələri stendlərdə Ağdam şəhəri üçün yeni məscid nümunələri, bina tipologiyaları və şəhərətrafı obyektlər, yol-nəqliyyat infrastrukturu ilə tanış olublar.

Sonra Ağdam şəhər Cümə məscidinə gələn qonaqlara ermənilərin müharibə cinayətləri, mədəni, tarixi, dini abidələri məhv etmələri barədə məlumat verilib. Bildirilib ki, ermənilər işğal etdikləri digər rayonlarda olduğu kimi, Ağdamda da Azərbaycanın tarixi-mədəni irsinə qarşı görünməmiş vandalizm həyata keçiriblər. Rayondakı abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib, bəziləri isə erməniləşdirilib. Erməni vandalizminə məruz qalan tarixi-dini abidələrdən biri də Ağdam şəhər Cümə məscididir. Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib. Ölkə əhəmiyyətli abidələr siyahısında olan bu məscid "Qarabağ məscid memarlığı" məktəbinə aiddir. Ermənilər məscidi hərbi məqsədlərə görə dağıtmayıb, onun minarələrindən koordinasiya üçün istifadə ediblər. Erməni vandalları Ağdam Cümə məscidində də mal-heyvan saxlamaqla azərbaycanlılara, müsəlman aləminə qarşı öz nifrətlərini nümayiş etdiriblər.

Daha sonra qonaqlar Ağdam şəhərinin mərkəzi küçəsində ermənilərin yerlə yeksan etdikləri binaların qalıqlarına baxıblar. Ağdam Dram Teatrının qalıqları da bu küçədədir. Qonaqlara ermənilərin mədəni irsimizə, o cümlədən Ağdam Dövlət Dram Teatrına vurduğu zərər barədə ətraflı məlumat verilib. Bildirib ki, işğal dövründə hər şeyi məhv edən ermənilər mədəniyyət ocaqlarını, musiqi məktəblərini də dağıdıblar. Məlumat verilib ki, Ağdam şəhərində Zəfər muzeyi və açıq hava altında İşğal muzeyi yaradılacaq. Teatr binasının qalıqları da açıq səma altında muzeydə saxlanılacaq.

Jurnalistlər Ağdama səfər zamanı Qiyaslı məscidini də ziyarət ediblər. Qonaqlar məscidin tarixi və ermənilərin törətdikləri barbarlıqlar barədə məlumatlandırılıb. Bildirilib ki, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalı zamanı xalqımıza məxsus yüzlərlə daşınmaz tarix, mədəniyyət və dini abidələr dağıdılıb, mənimsənilib, tarixi-mədəni təyinatına uyğun olmayan şəkildə istifadə edilərək vandalizmə məruz qalıb. Qarabağda erməni vandalizminə məruz qalan tarixi-dini abidələrdən biri də Ağdam rayonunun Qiyaslı kəndindəki XVIII əsrə aid məsciddir. Kənd məscidindən mal-qara tövləsi kimi istifadə edən işğalçılar rayonu tərk etməmişdən əvvəl onu yandırıblar.

# Xaricdə təhsil almış məzunlar Ağdamda olublar





İyulun 31-də Təhsil Nazirliyinin təşkilatçılığı ilə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" və "Hökumətlərarası Təqaüd Proqramları" çərçivəsində dünyanın bir sıra nüfuzlu ali təhsil müəssisələrində təhsil almış bir qrup məzunun işğaldan azad olunmuş Ağdam rayonuna səfəri təşkil olunub.



AZƏRTAC xəbər verir ki, səfərdə 71 nəfər dövlət proqramı və HTP məzunu iştirak edib. Həmin məzunlar dünyanın 17 ölkəsinin (ABŞ, Almaniya, Avstraliya, Böyük Britaniya, Belçika, Çexiya, Çin, İsveç, İsveçrə, İtaliya, Kanada, Litva, Macarıstan, Niderland Krallığı, Polşa, Rusiya, Türkiyə) 60-a yaxın nüfuzlu ali təhsil müəssisəsində müxtəlif ixtisas və təhsil səviyyələri üzrə təhsil alıblar. Onlar hazırda Azərbaycanda müxtəlif dövlət qurumlarında və özəl şirkətlərdə rəhbər və aparıcı mövqelərdə çalışırlar.

Səfər çərçivəsində Ağdam rayonunda Pənahəli xanın imarəti, İmarət stadionu, Ağdam Cümə və Qiyaslı məscidləri və Ağdam Dövlət Dram Teatrına ziyarət təşkil edilib. Məzunlar tərəfindən Ağdam Dövlət Dram Teatrı qarşısında milli folklor nümunələrindən "Sarı gəlin", "Heyratı Azərbaycan", eyni zamanda "Rast fraqmenti Niyazi", "Vivaldi-summer" ifa olunub. Bununla yanaşı, səfər zamanı Ağdamın Baş Planı ilə tanış olublar.

Qarabağın Azərbaycan üçün əhəmiyyətini, bölgənin tarixi və zəngin mədəni irsini dünya ictimaiyyətinə çatdırmaq məqsədilə "Nargis" jurnalının Qarabağ mədəniyyətinə və tarixinə həsr olunmuş "Karabakh is Azerbaijan" adlı xüsusi buraxılışı məzunlara təqdim edilib.

Türkiyənin Bilkent Universitetində təhsil almış Zöhrə Qaragöz işğaldan azad edilmiş ərazilərdə gördükləri onu dəhşətə gətirdiyini söyləyib: "Təbii ki, Ağdama ilk gəlişimdir. Heç bir söz, heç bir cümlə hisslərimi ifadə edə bilməz. Uşaq vaxtından mən Qarabağın necə gözəl bir guşə olduğunu bilirdim. Amma indi görürəm ki, o gözəllikdən əsər-əlamət qalmayıb. İnanıram ki, törədilən bu vandalizm aktları cəzasız qalmayacaq və biz əksinə, daha da güclü və inamla Qarabağımızı yenidən quracağıq".

Dövlət xətti ilə xaricdə təhsil alan gənclərin işğaldan azad olunmuş ərazilərə səfərinin böyük əhəmiyyət daşıdığını vurğulayan Çin Xalq Respublikası UIBE Universitetində təhsilini başa vuran Bəxtiyar İslamov deyib: "Hər birimizin təhsil aldığımız ölkələrdə öz əhatəmiz var. Biz xaricdəki dostlarımız vasitəsilə doğma torpaqlarımızda törədilən bu vəhşilikləri bütün dünyaya çatdıracağıq".

Səfərin sonunda Sumqayıt şəhər 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin tələbəsi Gülşən Baxşəliyeva tərəfindən çəkilmiş və 44 günlük Vətən müharibəsinin xüsusi elementlərini özündə ehtiva edən incəsənət əsəri yerli və əcnəbi vətəndaşların baxışı üçün Ağdam şəhəri də daxil olmaqla rayonun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynova təqdim olunub, xatirə şəkli çəkdirilib.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsi zamanı dövlət hesabına xaricdə təhsil almış gənclər müharibədən zərər çəkmiş hərbçilərimizə səhiyyə xidmətinin göstərilməsində, həmçinin sosial media hesablarında, ictimai və diplomatik platformalarda ölkəmizin haqq səsinin dünya ictimaiyyətinə çatdırılmasına öz töhfələrini veriblər.

# Türkiyə, yanındayıq!

Prezident İlham Əliyevin tapşırığına əsasən FHN-in yanğınsöndürmə qüvvələrinin əməkdaşlarından ibarət ikinci qrup da qardaş ölkəyə yola salınıb



*Əvvəli 1-ci səh.*

Şuşa Bəyannaməsinin, eyni zamanda Azərbaycan-Türkiyə-Pakistan parlament rəhbərlərinin üçtərəfli Bakı Bəyannaməsinin qəbul edilməsi, buna qədər mövcud olan ölkələrarası münasibətlərin daha inkişaf etdirilməsi və gələcəyə hesablanmış uğurlu davamı oldu...

Tarixən babalarımızın başlatdığı həmrəylik bu gün də davam edir. Hər iki qardaş xalq ağrı-acısını da, xoş gününü də birlikdə yaşayır, birlikdə kədərlənib, birlikdə gülürlər...

Türkiyədə baş verən meşə yanğınları ilə bağlı yaşanan fəlakət zamanı da Azərbaycan dövləti qardaş ölkənin yanında, ona dayaq olduğunu nümayiş etdirir.

Prezident İlham Əliyev qardaş ölkənin rəhbərinə yanğınlar zamanı həyatını itirən vətəndaşlara görə başsağlığı verərək bildirdi ki, Azərbaycan hökuməti və xalqı hər zaman olduğu kimi, bu gün də qardaş Türkiyə xalqı ilə həmrəydir və onun yanındadır.

Birinci vitse-prezident Mehriban Əliyeva da Türkiyəyə dəstək olaraq paylaşım edərək "Türkiyə xalqının kədəri bizim kədərimizdir", - deyə vurğuladı.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, meşə yanğınlarının söndürülməsi və daha geniş miqyas almasının qarşısının alınması üçün qardaş ölkəyə Azərbaycandan yardım dəstələri göndərildi.

Fövqəladə Hallar Nazirliyinin (FHN) yanğınsöndürmə qüvvələrinin əməkdaşlarından ibarət birinci qrup iyulun 30-da Türkiyəyə yola salınıb. Yanğınsöndürmə qrupunun tərkibində olan 100 əməkdaş Türkiyənin Muğla vilayətinin Marmaris və Dalaman bölgəsində yanğınlarla mübarizə aparır.

Türkiyədə meşə yanğınlarının söndürülməsi və daha geniş miqyasda yayılmasının qarşısının alınması məqsədilə Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Fövqəladə Hallar Nazirliyinin (FHN) müvafiq yanğın-xilasetmə qüvvələrinin növbəti qrupu dünən qardaş ölkəyə yola salınıb.

Yanğın-xilasetmə qrupuna 1 helikopter, 53 ədəd yanğınsöndürmə və xüsusi təyinatlı xilasetmə texnikası, 220 nəfər yanğınsöndürən və xilasedici daxildir. Qrupu fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyev yola salıb və müvafiq tapşırıqlar verib. Nazir müavini jurnalistlərə müsahibəsində Türkiyədə yanğınların söndürülməsinin mürəkkəbliyini qeyd edib. Bildirib ki, azərbaycanlı və türkiyəli mütəxəssislər yanğının lokallaşdırılması və qarşısının alınması üçün birlikdə fədakarlıqla çalışırlar.

Qeyd edək ki, ikinci qrup Gürcüstandan keçməklə iki sutka ərzində Marmarisə çatacaq və birinci qrupun üzvlərinə qoşularaq yanğınların söndürülməsində iştirak edəcək.

Türkiyədə olan azərbaycanlı yanğınsöndürənlər "çətin zamanlarda canımızla və qanımızla hər zaman Türkiyənin yanındayıq. Və nə vaxt ehtiyac olsa, biz həmişə qardaş Türkiyənin yanında olacağıq. Birliyimizi göstərəcəyik", - söyləyərək bir daha türk qardaşlarımıza dəstəklərini nümayiş etdirirlər.

Bütün beynəlxalq platformalarda, dövlətlərimizlə bağlı istənilən məsələlərdə daim birlik nümayiş etdirərək, bir-birinə dayaq duran iki qardaş ölkə - Azərbaycan və Türkiyə dövlətçiliyimizə, xalqlarımızın varlığına qarşı təhdid olan terrorizmə, işğal siyasətinə qarşı birlikdə mübarizə aparır. Eyni zamanda bütün təbii fəlakətlər, onların nəticələrinin aradan qaldırılması zamanı da daim bir-birinə dayaq, dəstək dururlar. Bu kömək iki ölkə arasındakı diplomatik münasibətlərdən ziyadə, iki qardaş xalq arasındakı mənəvi-ruhi bağlılığın, sevginin təzahürüdür. Bu, bir qardaşın çətin vəziyyətə düşən qardaşının harayına yetməsinin əyani təcəssümüdür.

İndi də Azərbaycan mənəvi və maddi dəstəyi ilə əziz Türkiyənin yanındadır, canidildən qardaş xalqa kömək etmək üçün əlindən gələn hər şeyi etməyə çalışır.

Qeyd edək ki, hazırda ölkənin beş vilayətinin on fərqli nöqtəsində yanğınlar hələ də davam edir, 88-i isə artıq söndürülüb. Alovlarla mübarizəyə ümumilikdə 3 təyyarə, doqquz insansız hava vasitəsi (İHA), bir insansız helikopter, 1 yanğınsöndürmə tankı, 38 helikopter, 680 yanğınsöndürmə maşını, 55 xüsusi maşın və 4000-dən artıq canlı qüvvə cəlb olunub. Yanğınlarla mübarizədə qardaş Türkiyəyə ölkəmizlə yanaşı, Rusiya və Ukraynadan da kömək göndərilib. Yanğınlar nəticəsində çox sayda ev, iş yeri, əkin və meşəlik ərazilər yararsız hala düşüb, heyvanlar tələf olub.

Türkiyə dövlətin aldığı mühüm qərarlar, qardaş, dost ölkələrin köməyi ilə tezliklə bu fəlakətin də öhdəsindən əzmlə gələcək.

**Yasəmən MUSAYEVA, "Azərbaycan"**

# FHN Dövlət Yanğın Nəzarəti Xidmətində əməliyyat müşavirəsi keçirilib



Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğın Nəzarəti Xidmətində əməliyyat müşavirəsi keçirilib.

FHN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Xidmət rəisi, daxili xidmət general-mayoru Hikmət Abbasovun rəhbərliyi ilə keçirilən əməliyyat müşavirəsində Dövlət Yanğın Nəzarəti Xidməti aparatının şöbə rəisləri və dövlət yanğın nəzarəti idarələrinin rəisləri iştirak ediblər.

Müşavirədə son günlər qardaş Türkiyənin bəzi bölgələrini cənginə alan və hazırda davam edən, meşələrdən başlayaraq yaşayış məntəqələrinin ərazilərini bürüyən yanğınlarla bağlı mövcud vəziyyət diqqətə çatdırılıb və onun acı nəticələri təəssüflə qeyd olunub. Xidmət rəisi ölkəmizdə analoji hadisələrin qarşısının alınması məqsədilə təsdiqlənmiş mövcud tədbirlər planı haqqında danışaraq, yüksək risk qrupuna aid edilən, o cümlədən yanğın potensiallı obyekt və ərazilərdə aidiyyəti dövlət orqanları ilə birgə yanğın təhlükəsizliyinə nəzarətin gücləndirilməsinin, informasiya mübadiləsinin aparılmasının və mümkün qabaqlayıcı tədbirlərin görülməsinin vacibliyini bildirib, müvafiq tapşırıqlar verib.

# Müddətli həqiqi hərbi xidmətə iyul çağırışı başa çatıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il iyunun 17-də imzaladığı Sərəncama uyğun olaraq həqiqi hərbi xidmətə növbəti çağırış başa çatıb. Sərəncamın icrası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (SHXÇDX) tərəfindən təmin edilib və iyul ayı ərzində Azərbaycan Silahlı Qüvvələrinin çağırışçılarla komplektləşdirilməsi müvəffəqiyyətlə yekunlaşdırılıb.

SHXÇDX-dən AZƏRTAC-a bildiriblər ki, respublikamızda koronavirus infeksiyasının (COVID-19) yayılmasının qarşısının alınması istiqamətində vətəndaşların sağlamlığının qorunmasına yönələn preventiv və təxirəsalınmaz tədbirlər çərçivəsində müddətli həqiqi hərbi xidmətə çağırışın mütəşəkkil keçirilməsi və mümkün risklərin minimallaşdırılması məqsədilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən zəruri addımlar atılıb. Müddətli həqiqi hərbi xidmət keçmək üçün xidmət yerlərinə təyin edilmiş çağırışçılar pandemiya dövründə tələb edilən qaydalara uyğun olaraq Nazirlər Kabineti yanında Operativ Qərargahın bütün tapşırıq və tövsiyələrinə, TƏBİB-in müvafiq təlimatlarına ciddi riayət ediləcək xidmət yerlərinə təhvil veriliblər.

Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən, 2003-cü ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1986-2002-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2021-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə yola salınıblar.




# Çingiz Hüseynzadədən idmançılarımıza dəstək

## "Azərbaycan hər zaman Olimpiadanın son 2-3 günündə medallar qazanıb"

*Əvvəli 1-ci səh.*

Təmsilçilərimizin qarşısını alanlar əsasən yerli tatami ustaları oldu. Burada təəccüblü heç nə yoxdur. Yaponiyada cüdo növündə medal qazanmaq elə də asan deyil. Bu baxımdan, Kindzerskanın bürünc medal qazanmasının özü də çox böyük uğurdur. Elə onun çəkisində də olimpiya çempionu adını yaponiyalı Akira Sone qazandı. Kindzerska isə yarımfinalda ona uduzdu. Ümumiyyətlə, cüdoçularımızın çoxu çempionlara uduzub".

Azərbaycan cüdoçularının çıxışını çox da uğursuz saymadıqlarını söyləyən MOK rəsmisinin fikrincə, Yaponiyada medal qazanma şansı çox az idi: "Bunu biz öncədən də bilirdik. Əsas idman növlərimiz hələ qabaqdadır. İnanıram ki, bu olimpiadada da yüksək nəticələr göstərə biləcəyik".

MOK-un vitse-prezidenti bildirib ki, olimpiadada 7 güləşçimiz var və onların hər biri medal qazanmağa namizəddir: "Bundan başqa, 3 karateçimiz də medal götürməyə layiqdir. Ümid edirəm ki, həm güləşdə, həm də karatedə kifayət qədər medal qazanacağıq".

Çingiz Hüseynzadə gimnastlardan da uğur gözlədiyini bildirib: "Onların çıxışı hələ qabaqdadır. Gimnastlarımız da güclüdür. Qrup yarışlarında müəyyən uğurlar qazana bilərlər. Başqa idman növlərində də yarışlar davam edir. Atletlər hələ başlamayıblar. Atıcılıq üzrə yarışımız var. Olimpiadanın birinci yarısı başa çatır. Bizim uğurlarımız




adətən Oyunların ikinci yarısında olub. Azarkeşlərimiz, tamaşaçılarımız bilirlər ki, yarışın son 2-3 günündə Azərbaycan hər zaman medallar qazanıb. Bu, Pekində də, Londonda da, Rioda da belə olub. İnanırıq ki, bu olimpiadanı da müsbət nəticələrlə yola salacağıq".

Ç.Hüseynzadənin sözlərinə görə, pandemiya şəraitində idmançıların hazırlıq keçməsi çətin olub: "Pandemiya həyatımızın hər sahəsinə olduğu kimi, idmana, idmançıların hazırlığına da çox böyük təsir göstərib. Bir tərəfdən, idmançıların da narazılıq etməyə haqqı çatır. Lakin bu narazılıq Gənclər və İdman Nazirliyinə və ya Milli Olimpiya Komitəsinə deyil, pandemiyaya qarşıdır. Ola bilər, hazırlıq üçün vaxt, yaxud da yarışlar çox az olub. Təkcə bizdə yox, dünyanın hər yerində yarışların bir qismi keçirilmədi. Ona görə də lisenziya şansı az oldu. Məsələn, cüdoçularımız təlim-məşq toplanışı üçün Tokioya gəlmək istəyirdilər, amma mümkün olmadı, icazə vermədilər. Digər idmançılarımızın fərqli yerlərdə hazırlıq keçməsi də alınmadı. Obyektiv səbəblər çoxdur. İdmançıları da, dövlət strukturlarını da qınamaq istəmirəm. Şərait belə gətirib. Hər birimiz üçün ağır dövr olub".

MOK-un vitse-prezidenti deyib ki, tamaşaçıların idmançılara azarkeşlik etməsi onlara dəstəkdir: "Azərbaycandan Yaponiyaya birbaşa dəstək bir az real görünmür. Amma onların yarışları izləməsi, idmançılarımıza azarkeşlik etməsinin özü də bir dəstəkdir. O ki qaldı idmançılara xoş sözlər deyilməsinə, bu, hər kəsin öz xarakterindən asılıdır. Elə idmançı var ki, ona xoş söz lazımdır. Eləsi var ki, onu danlamaq lazımdır. Hər birinə fərdi münasibət bəsləmək lazımdır. Yenə də inanıram ki, idmançılarımız yarışdan üzüağ və alnıaçıq qayıdacaqlar".

# Cavid Çələbiyev də Olimpiada ilə vidalaşdı



Dünən Azərbaycan millisinin boksçusu Cavid Çələbiyev Yaponiya paytaxtında ikinci qarşılaşmasına çıxdı. 63 kq çəkidə mübarizə aparan dünya çempionumuz "Ryoqoku Kokuqikan" İdman Sarayında 1/8 finalda ermənistanlı Ovanes Baçkovla üz-üzə gəldi. Çələbiyev 1:4 (28:29, 29:28, 27:30, 28:29, 28:29) hesabı ilə uduzaraq Olimpiada ilə vidalaşdı.

Qarşılaşmadan sonra boksçumuz deyib ki, qələbə gözləyirdi, lakin hakimlərin haqsızlığı buna səbəb oldu: "Birinci raundu qazanmışdım. İkinci hissəni də aktivimə yazmışdım. Ancaq hakimlərin haqsızlığı oldu. Olimpiya Oyunlarında həmişə belə hal yaşanır. Yenə də haqsızlıqla qarşılaşdıq. Mən birinci və ikinci raundu təmiz aparmışdım. Sadəcə, yekunda qələbəni qarşı tərəfə verdilər. Bu hakimlərin haqsızlığından irəli gəlir".

# Orxan Səfərov uğursuzluqda günahı özündə görmür



"Uğursuzluğun səbəbini özüm də bilmirəm. Açığı, federasiya idmançılar üçün hər bir şəraiti yaratmışdı. Təlim-məşq toplanışı keçmişik, verilən bütün tapşırıqları yerinə yetirmişik. Niyə belə olduğunu başa düşmürəm".

Bu fikirləri mətbuata açıqlamasında Azərbaycan cüdoçusu Orxan Səfərov (66 kq) Olimpiya Oyunlarındakı uğursuzluğu barədə danışarkən deyib.

Olimpiadadakı ilk görüşündə qazaxıstanlı Yerlan Serikjanova uduzaraq mübarizəni dayandıran Avropa çempionu məğlubiyyətin arxayınlıqla bağlı olmadığını bildirib: "Pandemiya hardasa səbəb ola bilər. Amma arxayınlıq yox idi. Olimpiya oyunlarında ilk dəfə iştirak etmirik. Hara yollandığımızı bilirdik".

O.Səfərovun sözlərinə görə, medalsız qaldığı üçün məyus olsa da, özünü günahkar hiss etmir: "Medal qazanmağı kim istəməz? Zaman keçir. O medalın boynunda olmağını istəyirsən. Bu, hər bir idmançının arzusudur. Zədələr, ağır məşqlər, 5 il ərzində keçdiyimiz əziyyət olimpiada üçündür. Uduzmaq mənə çox pis təsir etdi. Çəkdiyim əziyyətə heyfim gəlir".

Qeyd edək ki, Azərbaycan Tokio Olimpiadasında 9 cüdoçu ilə təmsil olunmuşdu. Onlardan yalnız biri - İrina Kindzerska (+78 kq) bürünc medal qazanıb.

# Dominqesin hədəfi çempionluqdur



"Azərbaycan millisinin aktivində artıq iki medal var. Onlardan biri də mənimdir. Buna görə çox xoşbəxtəm". Bunu Azərbaycan yığmasının boksçusu Alfonso Dominqes Tokio Olimpiadasında yarımfinala vəsiqə qazanması barədə danışarkən deyib.

81 kq çəki dərəcəsində türkiyəli Bayram Malkan üzərindəki qələbə sayəsində ən azı bürünc medalı təmin edən Dominqes sevincini gizlətməyib. Ancaq o, bununla kifayətlənməyəcəyini də vurğulayıb: "Uzunmüddətli məşqlərin yekunu kimi uğurlu nəticə qazandım. Buna görə çox sevincliyəm. Bürünc medalı təmin etsəm də, hədəfim Olimpiadada qızıl medal qazanmaqdır".

26 yaşlı idmançı döyüş zamanı hakimə etdiyi etirazına da aydınlıq gətirib: "Hakimə bildirdim ki, rəqib başını çox aşağı əyir, döyüşə bilmirəm. Buna görə çox əsəbləşdim, çünki belədə uduza bilərdim. Axı döyüşmək istəyirdim".

Qeyd edək ki, Alfonso Dominqes yarımfinal döyüşünə avqustun 1-də çıxacaq. Təmsilçimiz son Olimpiya çempionu olan kubalı Arlen Lopeslə qarşılaşacaq.

# İdmançının akkreditasiyası ləğv edildi

XXXII Yay Olimpiya Oyunlarında xoşagəlməz hadisə yaşanıb. Təşkilat Komitəsi iştirakçılardan birinin akkreditasiyasını ləğv edib. Bu, Yaponiya paytaxtında ilk belə hadisədir.

Cəzalananın adı və hansı yığmanı təmsil etdiyi açıqlanmır. Cəzaya səbəb həmin şəxsin Olimpiya kəndini əsassız və səbəbsiz tərk etməsidir. Şəhərin görməli yerlərini gəzməyə çıxan qonaq akkreditasiyasının ləğvinə görə Olimpiya kəndini də tərk etməli olacaq.

Qeyd edək ki, bir müddət öncə gümüş medal qazanan gürcüstanlı idmançılar Vaja Martvelaşvili və Laşa Şavdatuaşvilinin Tokiio teleqülləsinin yanında gəzdikləri barədə xəbərlər yayılmışdı. Bu xəbər təsdiqlənməsə də, akkreditasiyası alınanın onlardan biri olması ehtimalı böyükdür.

# Türkiyə ilk qızıl medalını qazandı



Qardaş Türkiyə millisi Tokio Yay Olimpiya Oyunlarında ilk qızıl medalını qazanıb. Bu uğura kamandan oxatan Mete Qazoz imza atıb.

22 yaşlı idmançı kişilərin fərdi yarışında bütün rəqiblərinə qalib gəlib. Bu, Türkiyənin idman tarixinə kamandan oxatmada ilk Olimpiya medalı kimi düşüb.

Tarixi nailiyyətə qədər qardaş ölkə 6 idman növündə medal qazanıb. Bunlar güləş, ağırlıqqaldırma, cüdo, taekvondo, boks və atletikadır. Lakin son iki növdə qızıl olmayıb.

# Amerikalı üzgüçüdən növbəti rekord



ABŞ üzgüçüsü Keti Ledeki nadir təsadüf olunan nailiyyətə imza atıb. 24 yaşlı idmançı Olimpiya Oyunlarında 800 m məsafəyə sərbəst üsulla üzməkdə birinci olub. O, 7-ci dəfə Olimpiada qızılına sahib çıxıb. Bunların 6-sı fərdi, 1-i estafetdə qazanılıb.

Ledeki yarış tarixində 7 və daha çox qızıl medal qazanan ikinci qadın üzgüçüdür. Rekord isə Cenni Tompsona məxsusdur. ABŞ üzgüçüsü 8 dəfə çempionluğa sevinib. Amma onun bütün uğurları estafetdə qeydə alınıb.

# Qəbələ XII Beynəlxalq Musiqi Festivalı



## XII Qəbələ Musiqi Festivalının ilk konserti və təntənəli açılış mərasimi olub

Azərbaycanın dilbər guşələrindən olan Qəbələ şəhəri yenidən öz qapılarını sənətsevərlərin, musiqi festivalı iştirakçılarının üzünə açıb.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun dəstəyi və təşkilatçılığı, Azərbaycan Respublikasının Təhsil və Mədəniyyət nazirliklərinin, Bakı Musiqi Akademiyasının və "Gilan Holdinq"in dəstəyi ilə iyulun 31-də başlayan XII Qəbələ Musiqi Festivalı avqustun 4-dək davam edəcək.

Builki festival əlamətdar hadisəyə - Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illik yubileyinə həsr olunub. Yubileyin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il mayın 26-da sərəncam imzalayıb. Bununla bağlı respublikamızın bir çox bölgələrində, musiqi-tədris ocaqlarında müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulub. XII Qəbələ Musiqi Festivalı da yubileyə həsr olunmuş tədbirlərdən biridir.

Musiqi ictimaiyyəti arasında böyük rəğbətlə qarşılanan Qəbələ Musiqi Festivalının proqramı bu il də çox zəngindir. Musiqisevərlər festival günlərində bir çox musiqi kollektivlərinin maraqlı konsert proqramından zövq alacaqlar. Festivalda klassik musiqi ilə yanaşı, muğam, vokal, kamera musiqisi axşamları da təşkil olunacaq.

İyulun 31-də axşam saatlarında Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzinin kamera zalında musiqisevərlərə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbələrinin iştirakı ilə festivalın ilk konserti təqdim olunub. Konsertdə respublika və beynəlxalq müsabiqələr laureatları çıxış ediblər. Pianoçular Leyla Zeynalova, Atabala Manafzadə, Cəmil Sədizadə, Rəşid Behbudov, Jalə Mayılova, Səbinə Muradova, Gülər Ağayeva və Fəqan Həsənlinin, violin ifaçıları Osman Mustafazadə, Zərrin Əliyeva və Aysel Abdullayevanın, violençel ifaçısı Orxan Hüseynovun, həmçinin viola, fleyta, klarnet və truba ifaçılarının, vokalçılar Nigar Əsgərova və Sübhan Rüstəmovun ifaları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Konsertdə S.Raxmaninov, H.Venyavski, A.Messager, A.Skryabin, A.Piazzolla, F.Şopen, D.Şostakoviç, həmçinin Azərbaycan bəstəkarlarından Tofiq Quliyev, Fikrət Əmirov və Müslüm Maqomayevin əsərləri səsləndirilib.

Gənc musiqiçilərin çıxışları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

* * *

Sonra "Qafqaz Resort" hotelində açıq səhnədə XII Qəbələ Musiqi Festivalının təntənəli açılış mərasimi olub.

Əvvəlcə ölkəmizdə musiqi mədəniyyətinin inkişafında və təbliğində müstəsna xidmətləri olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın festival iştirakçılarına təbrik məktubu oxunub.

Məktubda deyilir:

"Hörmətli festival iştirakçıları!

Xanımlar və cənablar!

Sizi - XII Qəbələ Musiqi Festivalının bütün iştirakçılarını və qonaqlarını ürəkdən salamlayır, festivalın işinə uğurlar diləyir, hər birinizə ən xoş arzularımı çatdırıram.

2009-cu ildən etibarən ənənəvi olaraq təşkil olunan Qəbələ Beynəlxalq Musiqi Festivalı mədəni irsimizin zəngin ənənələrinin qorunub saxlanılması ilə yanaşı, mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə böyük töhfəsini verən musiqi bayramı kimi ölkəmizin hüdudlarından kənarda da şöhrət qazanmışdır.

Bütün dünyanın mübarizə apardığı koronavirus pandemiyası səbəbi ilə festivalın təşkil olunmadığı 2020-ci il xalqımızın yaddaşına və tarixinə 44 günlük Vətən müharibəsi və Müzəffər Azərbaycan Ordusunun şanlı Zəfəri ilə əbədi həkk olundu. 30 ilə yaxın işğal altında olan əzəli Azərbaycan torpaqları azad olundu və ölkəmizin ərazi bütövlüyü bərpa edildi!

Qarabağın tacı olan Şuşa şəhərini ölkəmizin mədəniyyət paytaxtı elan edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı əsasında Heydər Əliyev Fondunun təşkilatçılığı ilə bu ilin may ayında "Xarıbülbül" Musiqi Festivalı bərpa olundu. Əfsanəvi Cıdır düzündə Azərbaycan musiqisini dinləmək arzusunda olan sənətsevərlərin uzunillik həsrətinə son qoyuldu.

Əziz dostlar!

Qloballaşan dünyada müxtəlif sivilizasiyalar və xalqlar arasında mədəniyyətlərarası dialoqun qurulması və inkişafı dövrümüzün ən vacib tələblərindən biridir. Beynəlxalq aləmdə mövcud olan problemlərin, münaqişələrin həll edilməsində, ayrı-ayrı xalqlar arasında qarşılıqlı hörmətin təşviqində dialoq ən gözəl vasitədir. Əsrlərboyu mədəniyyətlərarası dialoqun inkişafına öz töhfəsini verən Azərbaycan da tarixən müxtəlif millətlərin mədəniyyət və incəsənətinin qarşılıqlı zənginləşməsinə, xalqlar arasında olan birliyin daha da gücləndirilməsinə səy göstərib. Bu baxımdan, artıq illərdir ki, təşkil olunan Qəbələ Musiqi Festivalının rolunu yüksək qiymətləndirirəm.

Builki festival müsəlman Şərqinin yeni tipli ali musiqi təhsili ocağı olan Bakı Musiqi Akademiyasının 100 illik yubileyinin qeyd olunduğu ilə təsadüf edir. Milli musiqi sənətimizi bütün dünyada uğurla təmsil edən və yaradıcılığı Azərbaycan musiqisinin qızıl fonduna daxil olan görkəmli sənətkarların, tanınmış ifaçıların bir neçə nəsli məhz Bakı Musiqi Akademiyasının yetirmələridir. Təsadüfi deyil ki, XII Qəbələ Musiqi Festivalının iştirakçıları da, əsasən, peşəkar musiqiçi kadrların hazırlanmasına və klassik musiqi irsimizin öyrənilməsinə xidmət edən Bakı Musiqi Akademiyasının müəllim və tələbə heyəti və onun məzunlarıdır.

Mən festivalın bütün iştirakçılarına uğurlar arzu edirəm! Əminəm ki, tamaşaçılara maraqlı və rəngarəng musiqi proqramı təqdim olunacaq, XII Qəbələ Musiqi Festivalı hər zaman olduğu kimi qonaqlarımızın yaddaşında, Azərbaycan musiqi mədəniyyəti tarixində mənalı səhifələrdən biri kimi qalacaqdır".

Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyevanın, mədəniyyət naziri Anar Kərimovun iştirak etdikləri açılış mərasimində çıxış edən təhsil naziri Emin Əmrullayev deyib:

- Builki festival mahiyyət etibarilə bir qədər fərqli, eyni zamanda, tarixi bir hadisəyə təsadüf edir. Belə ki, Bakı Musiqi Akademiyasının 100 illik yubileyini məhz bu il qeyd edirik. Bakı Musiqi Akademiyası sıradan bir ali təhsil müəssisəsi deyil, özünün 100 illik fəaliyyəti dövründə Azərbaycanın və dünyanın bir sıra aparıcı musiqiçilərini, sənət adamlarını yetişdirib. Eyni zamanda, düşünürəm ki, Bakı Musiqi Akademiyası hər bir azərbaycanlının dəyər sistemində, kimliyində çox önəmli və vacib bir yer tutan ali təhsil müəssisəsidir. Bu, iki mənada önəmlidir. Birincisi, məhz bu təhsil, elm, musiqi ocağı Azərbaycan musiqisinin sistemləşdirilmiş və nəsildən-nəslə keçəcək bir irs formalaşdırılmasında xüsusi əhəmiyyəti olan bir təhsil müəssisəsidir. Eyni zamanda, bu təhsil ocağı dünya musiqisinə və dünya mədəniyyətinə Azərbaycanın inteqrasiya olunması baxımından da özünəməxsus bir ali təhsil müəssisəsidir.

Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, SSRİ və Azərbaycanın Xalq artisti, professor, Qəbələ Musiqi Festivalının bədii rəhbəri Fərhad Bədəlbəyli çıxışında builki festivalın əlamətdar hadisəyə - Bakı Musiqi Akademiyasının 100 illik yubileyinə həsr olunduğunu vurğulayaraq, bu yubileyin Azərbaycanın mədəni həyatında çox böyük hadisə olduğunu bildirib. O, Qəbələ Musiqi Festivalına uğurlar arzulayıb.

Açılış mərasimindən sonra Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Hərbi Orkestri geniş konsert proqramı ilə çıxış edib. Orkestrin bədii rəhbəri və baş hərbi dirijoru Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsi Hərbi Orkestr Xidmətinin rəisi, Xalq artisti, general-mayor Yusif Axundzadədir.

Konsertin əvvəlində orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni və Ü.Hacıbəylinin "Koroğlu" operasından "Üvertüra" səsləndirilib.

Orkestrin rəisi Əməkdar incəsənət xadimi, polkovnik-leytenant Rüfət Axundzadənin və hərbi dirijor baş leytenant Elnur Qurbanovun dirijorluğu ilə keçirilən konsertdə Aynur İsgəndərli (vokal), Arslan Növrəsli (tar), Kənan Qədimov (vokal), Gülnar Qüdrətli (xanəndə), Namiq Qurbanov (zurna, balaban) və Anar Hüseynovun (nağara) ifaları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.












# 190 ölkə arasında 28-ci

## "Doing business- 2020" hesabatında Azərbaycan 6 pillə irəliləyib

Azərbaycan son dövrlər, bir qayda olaraq, dünyanın nüfuzlu beynəlxalq təşkilatlarının açıqladığı hesabatlarda islahatçı ölkə kimi dəyərləndirilir ki, bu da, ilk növbədə, aparılan uğurlu iqtisadi islahatların nəticəsidir. Məhz bu islahatlar sayəsində Azərbaycanda son dövrlər bir çox yeni istehsal sahələri yaranır, məhsul istehsalı artır və həmin məhsulların dünya bazarına ixrac həcmi və coğrafiyası genişlənir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İslahat icmalı"nın xüsusi buraxılışı da Prezident İlham Əliyevin apardığı islahatlar nəticəsində ölkənin 2021-ci ildə beynəlxalq reytinqlərdə mövqeyinin yüksəlməsinə həsr olunub. Hesabatda göstərilir ki, Azərbaycanın mövqeyi "Doing business - 2020" hesabatında 6 pillə yüksələrək 190 ölkə arasında 28-ci olub. "Heritage Fondu" tərəfindən hazırlanan "İqtisadi Azadlıq İndeksi - 2021" hesabatında isə Azərbaycan 172 ölkə arasında 38-ci yerdə qərarlaşıb. 2021-ci ildə açıqlanmış Beynəlxalq Telekommunikasiya İttifaqının (ITU) "Qlobal kibertəhlükəsizlik indeksi - 2020"də də Azərbaycan 15 pillə irəliləyib. Bunlardan əlavə, Uşaq Hüquqları Fondu və Erasmus Rotterdam İnstitutunun "Uşaq Hüquqları İndeksi - 2021" hesabatına görə, Azərbaycan 2020-ci illə müqayisədə 3 pillə önə keçib. UNESCAP-ın "Transsərhəd kağızsız ticarətə hazırlığın qiymətləndirilməsi" layihəsinin cari il üzrə sorğusunun nəticəsinə görə də Azərbaycan regionda liderliyini qoruya bilib.

Həyata keçirilən islahatların əsas məqsədi ölkənin neftdən asılılığını aradan qaldırmaqla qeyri-neft sektorunun şaxələndirilməsinə nail olmaqdır. Bu sahədə ciddi irəliləyişin olduğunu demək mümkündür. Bu gün ölkəmiz qeyri-neft sektorunda təkcə sənaye və kənd təsərrüfatı məhsulları istehsal və ixrac etmir. Azərbaycan dünyanın inkişaf etmiş ölkələrinə xas olan intellektual məhsulun ixracını da həyata keçirir. Təkcə 2021-ci ilin yanvar-iyun aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın 31 ölkəsinə 22 milyon dollar dəyərində peyk telekommunikasiya və optik peyk xidmətləri ixrac olunub. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 90 faizini təşkil edib. 2021-ci ilin iyun ayında isə "Azərkosmos" ASC dünyanın 24 ölkəsinə 2,6 milyon dollar dəyərində xidmət göstərib.

İcmalda qeyd edilir ki, ilin ilk 6 ayı ərzində Azərbaycanın ixracının dəyəri 8,8 milyard, qeyri-neft sektoru üzrə 1,2 milyard dollar təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 248 milyon dollar və ya 27,1 faiz artıb. Bu dövrdə ixracatın əsas hərəkətverici amili neft sektoru olsa da, bərpa dönəmində qeyri-neft ixracı üzrə pay 13,2 faizə qədər artıb. Adambaşına düşən qeyri neft-qaz ixracında artım müşahidə edilib. Belə ki, bu göstərici 2017-ci ilin ilk 6 ayı üzrə 82, 2018-ci ildə 94, 2019-cu ildə 97 dollar olub. Pandemiya dönəmi ilə əlaqədar bu göstərici 91 dollara düşsə də, cari ilin ilk 6 ayında tarixdə ilk dəfə 116 dollar səviyyəsinə qalxıb.

Normallaşma prosesinin davam etdiyi iyun ayı üzrə xarici ticarətin dəyəri 2,4 milyard dollar olmaqla, mövcud dövr ərzində ölkə üzrə ixracın dəyəri 1,4 milyard, idxalın dəyəri isə 997,1 milyon dollar təşkil edib. Qeyri-neft sektoru üzrə ixracda artım 33,7 faiz təşkil etməklə 254,9 milyon dollar olub. Habelə iyun ayında qeyri-neft ixracının ümumi ixracda payının təxminən 20 faizə yaxınlaşmasını da əlamətdar hadisə kimi qeyd edə bilərik.

İsmalda o da göstərilir ki, cari yanvar-iyun ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid məhsulların siyahısında tomat (pomidor) birinci olub. Bu siyahıda pambıq mahlıcı ikinci, qızıl isə üçüncü yerdə qərarlaşıb. Həmin dövrdə Rusiyaya 403,8 milyon, Türkiyəyə 309,5 milyon, İsveçrəyə 117,6 milyon, Gürcüstana 80,2 milyon və ABŞ-a 30,3 milyon dollar dəyərində qeyri-neftin məhsulları ixrac edilib. İyun ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında isə Rusiya birinci, Türkiyə ikinci və İsveçrə üçüncü olub.

"İxrac İcmalı" tərəfindən qeyri-neft sektoru üzrə 2021-ci ilin yanvar-iyun ayları üzrə həyata keçirilən ixracla bağlı qeyri-dövlət və dövlətə məxsus ixracatçı subyektlərin reytinqi də tərtib edilib. Həmin reytinqdə ilk onluqda "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Local Garden" MMC, "P-Aqro" MMC, "Baku Steel Company", "Sun Food" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC, "Fruitland" MMC və "Agro-Land-Az" QSC şirkətləri qərarlaşıblar.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra siyahıda "SOCAR Polymer" MMC, "AzerGold" QSC, "Azəralüminium" MMC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərenerji" ATSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azəripək" MMC, "Caspian Geo" MMC, Naxçıvan MR Dövlət Energetika Xidməti şirkətləridir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Sahibkar və menecerlər beynəlxalq ixtisasartırma kursunu başa çatdırıblar

Azərbaycanın biznes ictimaiyyətində menecerlərin ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan Birgə Proqramı çərçivəsində "İqtisadi kooperasiya" üzrə beynəlxalq ixtisasartırma kursu keçən sahibkar və menecerlər üçün təlimlər başa çatıb.

Qida məhsullarının istehsalı və xidmət sahələrində fəaliyyət göstərən sahibkar və menecerlərə onlayn formatda beynəlxalq sertifikatlar təqdim edilib.

Qeyd edək ki, may-iyul ayları ərzində sahibkar və menecərlər Almaniyanın "AHP International" Tədris Mərkəzinin ekspertləri tərəfindən keçirilən onlayn təlimlərdə menecment sahəsində beynəlxalq təcrübə barədə məlumatlandırılıb, bu sahədə praktiki vərdişlərə yiyələnib və onlara alman şirkətləri ilə əlaqələrinin qurulmasına dəstək göstərilib.

Pandemiya bitdikdən sonra kursu uğurla başa vurmuş sahibkar və menecerlərin Almaniyaya bir həftəlik səfərlərinin təşkili nəzərdə tutulur.

Məlumat üçün bildirək ki, "Azərbaycanın biznes ictimaiyyətində menecerlərin ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan birgə Proqramı" Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Almaniyanın Federal İqtisadiyyat və Enerji Nazirliyi arasında imzalanmış Anlaşma Memorandumuna uyğun olaraq həyata keçirilir. Proqramın Azərbaycan tərəfdən əlaqələndiricisi İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Almaniya tərəfindən isə GİZ-dir. İndiyədək proqramdan 467 sahibkar və menecer yararlanıb. Pandemiya səbəbindən ixtisasartırma kursu onlayn formatda davam etdirilir. Proqramda iştirak etmək istəyən sahibkar və menecerlər KOBİA-ya müraciət edə bilərlər.

## Qayğıkeşliyə ehtiyacı olanların problemləri həll edilir

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Naxçıvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud şəxslərin, yaşı 18-dən az olanların və qadınların məşğulluqlarının təmin edilməsi, həmçinin onların əməyindən qanunvericiliyə uyğun istifadə edilməsinə dair maarifləndirici seminar olub.**

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, tədbirdə çıxış edən Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Təhminə Mustafayeva Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının əhalinin məşğulluğu sahəsində də sosial layihələrin reallaşmasına əlverişli zəmin yaratdığını qeyd edib. Bildirib ki, bu istiqamətdə həyata keçirilən tədbirlər sağlamlıq imkanları məhdud şəxslərin, yaşı 18-dən az olanların və qadınların məşğulluğunun və sosial müdafiəsinin təmin edilməsinə töhfə verməklə, müvafiq kateqoriyadan olan şəxslərin sosial təminatını daha da yaxşılaşdırıb.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Canməmməd Canməmmədov çıxışında bildirib ki, muxtar respublikada sağlamlıq imkanları məhdud olan şəxslərin və qadınların məşğulluğunun təmin edilməsi diqqət mərkəzindədir. Belə şəxslərin məşğulluğunun təmin edilməsi və əmək hüquqlarının qorunması sahəsində görülən işlərdən, bu sahədə mövcud qanunvericilik aktlarının əhəmiyyətindən bəhs edən nazir müavini bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 31 may 2018-ci il tarixdə imzaladığı "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun icrasının vacibliyini diqqətə çatdırıb.

Nazirliyin əməkdaşı Elmin Fərəcov sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün kvota tətbiq edilməsi qaydası, həmin kvota üzrə müəyyən olunmuş iş yerləri üzrə işəgötürənlərin qanunla müəyyən edilmiş qaydada məsuliyyətlərindən bəhs edib.

Nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi Elnar Hüseynov müəssisə və təşkilatlarda müvafiq kateqoriyadan olan şəxslərin və qadınların əmək hüququ, onların əməyindən qanunvericiliyə uyğun istifadə edilməsi, həmçinin Azərbaycan Respublikasının Əmək Məcəlləsində və əmək qanunvericiliyinə dair digər normativ-hüquqi aktlarda bu şəxslər üçün müəyyən olunan güzəştlər, imtiyazlar və əlavə təminatlar haqqında danışıb.

Çıxışlar zamanı slaydlardan istifadə olunub, suallar cavablandırılıb.



# DÜNYA



■ Layihə

Kiçik Amal qeyri-adi qızdır. Onun boyu 3,5 metrdir. Avropada qət edəcəyi yol 8 min kilometrdir. "Alman dalğası" radiostansiyası unikal layihə barədə söhbət açır:



## Balaca Amal insanları yaxınlaşdırmaq üçün səyahətə çıxıb

Balaca Amalın marşrutu Suriyadan Böyük Britaniyaya qədərdir. Qızcığaz yemək axtarışı üçün evdən getmiş və geri qayıtmamış anasını axtarır.

Əslində Amal nəhəng gəlincik və "The Walk" teatr layihəsinin əsas personajıdır. Türkiyənin cənubunda, Suriya ilə sərhəd yaxınlığında yerləşən Qaziantep şəhərində start götürdükdən sonra bu gəlincik 2 ay ərzində Avropanın 8 ölkəsinə "səfər" edəcək.

Bu layihə Böyük Britaniyanın "Good Cpance" kollektivinin korona virus pandeniyası dövründə unudulmağa başlayan qaçqınların problemlərinə diqqəti yönəltmək cəhdidir.

Teatrın bədii rəhbəri Əmir Nizar Zuabi vurğulayır ki, hazırda bütün dünyanın digər problemlərin həlli ilə məşğul olduğu halda, qaçqınlarla bağlı yaranmış böhrana diqqəti cəlb etmək çox vacibdir. Və teatrın əsas vəzifəsi öz doğma evlərini tərk etmiş adamların ağır həyatı barədə yox, onlardakı potensial haqqında danışmaqdır. Təşkilatçılar qeyd edirlər ki, bu, indiyədək təşkil olunan teatrlar arasında ən innovasiyalı və maraqlısıdır. Tamaşaya cəlb olunmuş aktyorlar arasında vaxtilə qaçqın həyatı yaşayan adamlar da var.

Amalın olduğu hər bir yerdə rəssamlar və mədəniyyət xadimləri aksiyaya qoşulacaqlar. Tamaşaçıları rəngarəng proqram gözləyir. Almaniyanın Ştuttqart şəhərində Amalı "Dundu" teatrı qarşılayacaq. Bu kollektivin rəhbəri Fabian Zeyevald layihənin unikallığını və cəsarətini vurğulayır. Pandemiya dövründə 8 ölkədə bunu reallaşdırmaq heç də asan məsələ deyil. "Gəlincik" Almaniyaya İzmirə, Romaya, Marselə, Cenevrəyə və Strasburqa səyahət etdikdən sonra gələcək.

Bu il oktyabrın 1-dən 3-dək Ştittqart, Köln və Reklinqhauzen şəhərlərində çıxış etdikdən sonra Amal Antverpenə, Brüsselə, Parisə və Londona yollanacaq. Ştuttqartda Amalı ona oxşar marionet gəlinciklər gözləyir. Düzdür, onların ölçüləri daha böyükdür - 5 metr.

Kölndə "ArtAsyl" birliyi Amala müharibə acıları yaşamış böyük nəslin nümayəndələri ilə görüş hazırlayır. Digər şəhərlərdə küçə yürüşləri planlaşdırılmışdır.

"Lttle Amal" layihəsi üçün gəlinciyi Cənubi Afrikadan olan tanınmış istehsalçı "Handspring Puppet Company" şirkəti hazırlamışdır. Amala görə, şirkətin yaradıcıları hətta təqaüdlərini yarımçıq qoyaraq yenidən işə çıxmışlar. Şirkətin banilərindən biri Adrian Koler qeyd edir ki, qaçqın mövzusu zəmanəmiz üçün çox vacibdir. Bir çox teatrlarınm bağlandığı pandemiya dövründə isə bu kimi aksiya insanları yenidən birləşdirməyə kömək edə bilər.

Amalın hərəkət etməsi üçün gəlinciyi eyni vaxtda 4 nəfər idarə etməlidir. Düzdür, mexanikasız da ötüşmək mümkün deyil.

"Good Cpance" teatr kollektivi 2015-ci ildə Kaledə qaçqın düşərgəsində yaradılmışdır. Onun "Cəngəlliklər" adlı ilk tamaşası Londondakı teatr meydançalarında böyük uğur qazanmışdır. Kollektivin aktyorları və rəhbərləri əmindirlər ki, incəsənət humanitar böhranların həllində böyük rol oynayır. Bununla Fabian Zeyevald da razılaşır. O, "Alman dalğası" radiostansiyasına müsahibəsində kollektivin 2013-cü ildə Qahirədə keçirdiyi bir aksiyanı xatırlatmışdır. Nəhəng marionet gəlincik uşaqlarda elə heyranlıq yaratmışdır ki, hansısa anda insanlar arasında bütün fərqlər və sərhədlər silinmişdir. Və ən gözlənilməz effekti tamaşaçılar gəlinciyin hərəkətində iştirak etmək icazəsi aldıqda yaşayırlar. Marionet teatrının bütün magiyası məhz elə bundadır - birlikdə insanlarda həyata oyanış yaratmaq".

■ Günün hadisələri

## Türkiyənin 10 nöqtəsində yanğınlar davam edir

Artıq bir neçə gündür qardaş Türkiyədə meşə yanğınları davam edir. AZƏRTAC xəbər verir ki, hazırda ölkənin beş vilayətinin 10 fərqli nöqtəsində yanğınlar hələ də davam edir, 88-i isə artıq söndürülüb.

Alovlarla mübarizəyə ümumilikdə 3 təyyarə, 9 pilotsuz hava vasitəsi (İHA), pilotsuz helikopter, yanğınsöndürmə tankı, 38 helikopter, 680 yanğınsöndürmə maşını, 55 xüsusi maşın və 4000-dən artıq canlı qüvvə cəlb olunub. Yanğınlarla mübarizədə qardaş Türkiyəyə ölkəmizlə yanaşı, Rusiya və Ukraynadan da kömək göndərilib.



Yanğınlar nəticəsində çox sayda ev, iş yeri, əkin və meşəlik ərazi yararsız hala düşüb, heyvanlar tələf olub.

## Berlində atışma olub



Almaniyanın paytaxtı Berlin şəhərinin Veddinq rayonunda yerləşən avtomobil dayanacaqlarından birində atışma baş verib. Bu barədə "Berliner Zeitung" qəzetinə istinadən TASS agentliyi xəbər verir.

Məlumata görə, cinayəti törədən şəxs 4 nəfərə odlu silahdan atəş açıb və bıçaqla vurub. Onlardan 3-nün vəziyyəti ağırdır. Yaralılar xəstəxanaya çatdırılıb. İnsidentin səbəbi məlum deyil.

## Qəddafi Liviyaya qayıdacaq

Liviyada 2011-ci ilin oktyabrında "Ərəb baharı" adı ilə baş vermiş üsyanda həbs edilən Müəmmar Qəddafinin oğlu Seyfəlislam "Nyu York Tayms" qəzetinə müsahibəsində tezliklə öz ölkəsinə qayıdacağını və siyasətlə məşğul olacağını deyib.

Bu barədə AZƏRTAC-ın yaydığı xəbərdə bildirilir ki, 10 ilə yaxın gizlənən Seyfəlislam Qəddafi amerikalı jurnalist Robert Uorta müsahibəsində əsirlikdə olduğu vaxt başına gələnlərdən danışıb. O deyib ki, üsyançılar onu edam etmək istəyiblər, lakin müəyyən vaxtdan sonra bu fikirdən vaz keçiblər. Uzun illər boyu üzə çıxmamasının səbəbini izah edən oğul Qəddafi əlavə edib ki, hazırda liviyalılar inqilab illüziyasından ayılıblar və bunun şahidi olmaq üçün o, səbirlə gözləyib. London Kollecinin məzunu olan Seyfəlislam həm də atasının varisi idi və Qərb siyasətçiləri arasında dostları da vardı. O, 2012-ci ilədək Liviyanın Zintan



həbsxanasında saxlanılıb və naməlum şəxslər tərəfindən qaçırıldıqdan sonra indiyədək bilinməyən yerdə gizlənib. Seyfəlislam atasının tərəfdarlarından ibarət "Yaşıl hərəkat" adlı təşkilatın yenidən Liviyanın bütövlüyünü bərpa edəcəyinə inanır. "Nyu York Tayms" yazır ki, Liviyadakı son seçkilərdə bu hərəkatın da üzvləri iştirak ediblər. Qəzetin iddia etdiyinə görə, hazırda liviyalıların 57 faizi Seyfəlislamın ölkəyə rəhbərlik etməsini istəyir.

■ Xəbərlər

## Avrozona iqtisadiyyatı 2021-ci ilin əvvəlindən xeyli artmışdır



Cari ilin ikinci rübündə avrozonanın iqtisadi artımı bir çox ekspertlərin gözləntilərini üstələyərək 2 faiz təşkil etmişdir. Bu barədə "Eurostat" Statistika İdarəsi məlumat verir.

Bildirilir ki, aprel-iyun aylarında ÜDM istehsalı Portuqaliyada 4,9, Avstriyada 4,3 və Latviyada 3,7 faiz artmışdır. Eyni zamanda iqtisadiyyatın ən az artımı isə Litvada (0,4 faiz) və Çexiyada (0,6 faiz) qeydə alınmışdır. "Röyter" agentliyinin xəbərinə görə, sorğuda iştirak etmiş ekspertlər avrozona iqtisadiyyatının artımını 1,5 faiz proqnozlaşdırmışdı.

İnflyasiyaya gəldikdə isə, son 12 ay ərzində onun avrozonadakı səviyyəsi 2,2 faiz olmuşdur. Bu, 2018-ci ilin payızından bəri maksimal göstəricidir.

## Moldova Prezidenti Natalya Qavrilitsanı baş nazirliyə təqdim edib



Moldova Prezidenti Maya Sandu ölkənin sabiq maliyyə naziri Natalya Qavrilitsanı hökumət başçısı vəzifəsinə təqdim etmişdir. Bu barədə TASS agentliyi xəbər verir.

İndi Natalya Qavrilitsanın namizədliyini parlament təsdiq etməlidir. Xatırladaq ki, iyulun 11-də Moldovada növbədənkənar parlament seçkiləri keçirilmişdir. Seçkilərdə Sandunun başçılıq etdiyi Hərəkət və Həmrəylik Partiyası qələbə qazanaraq parlamentdəki 101 yerdən 63-nə yiyələnmişdir.

Natalya Qavrilitsanın namizədliyi təsdiq olunacağı halda o, iki həftə ərzində öz kabinetinin tərkibini və proqramını parlamentin təsdiqinə təqdim etməlidir.

## Yunanıstan qaçqın uşaqları təhsildən məhrum edir



Yunanıstanda qaçqın düşərgələrindəki hər 7 uşaqdan 6-sı təhsildən məhrum olunub. Bu barədə Human Rights Watch (HRW) beynəlxalq hüquq müdafiə təşkilatının məlumatında bildirilir. Hesabat müəllifləri qeyd edirlər ki, Afina Avropa İttifaqının (Aİ) miqrasiyanın tənzimlənməsi üzrə direktivlərini kobud şəkildə pozur və qaçqın uşaqlara münasibətdə sərt ayrı-seçkilik siyasəti yürüdür.

HRW əməkdaşları qaçqın düşərgələrindəki ailələrlə, Yunanıstan Təhsil Nazirliyinin əməkdaşları ilə və könüllülərlə görüşdükdən sonra bu qənaətə gəlmişlər ki, Yunanıstan qaçqın uşaqların təhsil və peşə hazırlığı hüquqlarını pozur.

Təşkilatda vurğulamışlar ki, 2015-ci ildən bəri Aİ "miqrasiyanın idarəedilməsi"nin, o cümlədən qaçqınların təhsil almasının dəstəklənməsi üçün Yunanıstana 3,45 milyard avro ayırmışdır.

Hüquq müdafiəçiləri Avropa Komissiyasını Yunanıstana təzyiq göstərməyə və Afinanı bu ayrı-seçkilik siyasətinə son qoymağa məcbur etməyə çağırmışdır.

■ İqlim böhranı

## 14 min alim iqlim dəyişikliklərinə qarşı qəti mübarizə tələb edir



150 ölkədən olan 14 mindən çox alim iqlim böhranı ilə əlaqədar siyasətdə təcili dəyişikliklər edilməsinə çağırmışdır. Onlar "BioScience" jurnalında dərc olunmuş məqalədə vurqulayırlar ki, bu dəyişikliklər Yer üzündə həyatın qorunması üçün son dərəcə aktualdır. Söhbət mədən növlü yanacaqdan imtina edilməsindən və biomüxtəlifliyin daha yaxşı müdafiə olunmasından getməlidir.

Yazının müəllifləri 2 il öncə də analoji məktubda "iqlim sahəsində yaranmış qlobal fövqəladə vəziyyət" barədə xəbərdarlıq etmişlər. O vaxt tədqiqatçılar bildirmişlər: "Əgər insanların iqlimin dəyişməsinə rəvac verən istixana qazlarının tullantıları və digər faktorlarla bağlı davranışı fundamental şəkildə və birdəfəlik dəyişməsə, sözlə ifadə olunmayan insan əzablarının qarşısını almaq bundan sonra mümkün olmayacaq".

Həmin vaxtdan bəri daşqınlar, yanğınlar, Yer atmosferi temperaturunun kəskin yüksəlməsi kimi çoxsaylı hadisələr baş vermişdir. Və bunlar aydın şəkildə hazırkı siyasətin davam etməsinin fəsadlarını göstərmişdir. Məsələn, tədqiqatçıların məlumatına görə, ötən il meteomüşahidələr tarixində ikinci ən isti il olmuşdur. Cari ilin aprel ayında iqlim üçün ziyanlı olan karbon qazı və metanın Yer atmosferində konsentrasiyası əvvəlki dövrlərlə müqayisədə daha yüksək olduğu qeydə alınmışdır.

Müraciət müəlliflərindən biri, ABŞ-ın Massaçusets ştatındakı "Woodwell Climate Reesearch Center" Elmi Mərkəzinin mütəxəssisi Filip Daffiinin fikrincə, son bir neçə il və hətta son bir neçə həftə ərzində müşahidə olunan ekstremal iqlim hadisələri böhranla mübarizənin dərhal başlanmasını labüd edir.

Tədqiqatçılar Yerin vəziyyətinin göstəricisi, o cümlədən buzlaqların qalınlığı, dəniz buzunun və meşələrin sahəsi kimi 31 "həyati əhəmiyyətli vacib indikator"u öyrənmişlər. Onlar 31 parametrdən 18-də neqativ rekord göstəricilər qeydə almışlar. Məsələn, buzlaqlar 15 il əvvəl olduğundan 31 faiz sürətlə əriyir. Qlobal dəniz səviyyəsi və dəniz suyunun temperaturu indiyədək heç vaxt olmadığı kimi yüksəkdir.



## Ceff Bezos dünyanın ən varlı insanı statusunu itirib



"Amazon"un banisi Ceff Bezos şirkətinin səhmlərinin ucuzlaşması ilə təxminən 14 milyard dollar itirdikdən sonra dünyanın ən varlı insanları reytinqində ikinci yerə düşüb. Bu barədə "Forbes Real-Time" reytinqində deyilir.

Məlumata əsasən, C.Bezos sərvətinin 6,76 faizini və ya 13,9 milyard dollarını itirib. Hazırda onun varidatı 192,4 milyard dollar təşkil edir.

Hazırda dünyanın ən varlı insanları reytinqində birinci yerə sərvəti 192,9 milyard dollar olan "Louis Vuitton Moet Hennessy" (LVMH) şirkətinin sahibi Bernar Arno qalxıb.

## ABŞ Rusiyadakı diplomatik nümayəndəliklərin 182 yerli əməkdaşını işdən kənarlaşdıracaq



Vaşinqton Rusiyanın Moskva, Vladivostok və Yekaterinburq şəhərlərindəki diplomatik missiyalarda çalışan 182 yerli əməkdaşı işdən çıxarmalı olacaq.

ABŞ-ın dövlət katibi Entoni Blinken bunu əcnəbilərin işə götürülməsinə qoyulan məhdudiyyətlərlə əlaqələndirib. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir.

"Bu üzücü tədbirlər ABŞ-dakı missiyalarımızın işinə ciddi təsir göstərəcək. Bura potensial olaraq personalımızın təhlükəsizliyi, habelə Rusiya hakimiyyəti ilə diplomatik təmas imkanları daxildir", - deyə Amerika diplomatiyasının rəhbəri qeyd edib.

## İraqın şimalında terrorçuların 40-a yaxın obyekti məhv edilmişdir



Türkiyə Hərbi Hava Qüvvələri İraqın şimalında terrorçuların 40-dək obyektini məhv etmişdir. Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi məlumat verir.

Dünən Qəndil, Qara, Xakurk və Zap rayonlarında terrorçuların sığınacaqları və döyüş sursatı anbarları məhv edilmişdir. Terrorçuların həmin regiondakı mövqelərinə güclü zərbə endirilmişdir.

Nazirlikdən bildirilmişdir ki, Türkiyə terrorçuluğun kökünü tam kəsməyənədək qətiyyətli mübarizəni davam etdirəcək.

PKK terrorçuları ölkədə sabitliyi pozmaq və Türkiyəni parçalamaq üçün qanlı aksiyalar həyata keçirirlər.

2 avqust Azərbaycan Kinosu Günüdür



# Bu kino ki var, çox qəliz məsələdir

Kino deyəndə ilk yada düşən məşhur “Bəyin oğurlanması” filmində Səməndər Rzayevin qəhrəmanın dediyi “Bu kino ki var, çox qəliz məsələdir, həm qəlizdir, həm də ki vacib...” cümləsi yada düşür. Elə bu sitatla da başlmaq istərdim, amma başlamıram, çünki kino haqqında onlarla yazıya bu sitatla giriş verilib.

Yaxşısı budur ondan başlayaq ki, bu kino əslində milli məsələdir, ona görə də milli kinonun tarixi və o tarixi qeyd etdiyimiz gün var - 2 avqust. Həmin gün 18 dekabr 2000-ci il tarixdə Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə “Azərbaycan Kinosu Günü” kimi qeyd edilir.

Kinonun milli məsələ olması ilə bağlı daha bir nümunə gətirək. 1979-cu ildə kinorejissor Eldar Quliyev “Babək” filmini ekranlaşdıranda Ümummilli Lider Heydər Əliyev çəklişlərlə maraqlanan zaman rejissor deyir ki, çəkilişlər ləngiyir, çünki kütləvi səhnələrə çəkməyə kütlə tapmırıq, hamı üzüm yığımı ilə məşğuldur. Çəkilişlər Naxçıvanda aparılırmış. Həmin vaxt Naxçıvanda üzüm yığımı olduğundan əhali çəkilişlərə gələ bilməyib. O vaxt Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi işləyən Heydər Əliyevdən tapşırıq gəlir: “Qoy bu il Naxçıvanın üzüm planında kəsir qalsın, amma insanlar çəkilişlərdə iştirak etsinlər. Üzüm gözləyər, “Babək” isə çəkilməlidir”.

Milli kino ilə bağlı ensiklopedik araşdırmasında kinoşünas Aydın Kazımzadə də bu barədə yazıb. Yeri gəlmişkən, 1996-cı ildə kinoşünas Aydın Kazımzadə araşdırmalarının nəticəsi kimi, Azərbaycan kino tarixinin 1898-ci ildən başlandığı sübut olundu. Çünki həmin il avqustun 2-də Anton Mişonun Bakıda çəkdiyi “Balaxanıda neft fontanı” adlı ilk Azərbaycan filmi nümayiş etdirilib. Kinomuzun bu tarixdən sonrakı inkişafı isə dahi Üzeyir bəy Hacıbəylinin adı ilə bağlıdır. Onun əsərləri dəfələrlə ekranlaşdırılıb, kinonun Azərbaycanda ayaq açıb yeriməsi Üzeyir bəy Hacıbəylinin əsərlərinin ekran həlli ilə mümkün olub. “Arşın mal alan”, “O olmasın, bu olsun” milli kinonun inkişafını əsaslandıran ekran əsərləridir.

Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-cu ildən kinomuz yeni inkişaf yoluna qədəm qoydu, vaxtilə ekranlara buraxılmayan filmlər Heydər Əliyevin təşəbbüsü ilə ekrana çıxdı. Azərbaycan kinosunun ən maraqlı işlərindən olan “Bir cənub şəhərində” filmi məhz Heydər Əliyevin dəstəyi ilə ekran həyatı qazandı. Kinoda Azərbaycan tarixini, mədəni abidələrini, dahi şəxsiyyətlərini canlandıran “Nəsimi”, “Nizami”, “Babək”, “Dədə Qorqud” kimi ekran əsərləri meydana gəldi. Kinematoqrafiya sahəsində çalışanların məişət şəraiti yaxşılaşdırıldı, onlara fəxri adlar verildi. Əgər 1969-cu ilə qədər Azərbaycan kinosunda yalnız bir nəfər Xalq artisti fəxri adı almışdırsa, həmin ildən Tofiq Tağızadə, Həsən Seyidbəyli və neçə-neçə sənətkarlar Xalq artisti adına layiq görüldülər. 1976-cı ildə Ulu Öndərin təşəbbüsü ilə respublikamızda kino sənətinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında tarixi qərar qəbul olundu. Məhz onun sayəsində 1970-ci illərdən başlayaraq Bakıda ümumittifaq kino və televiziya filmləri festivallarının keçirilməsi ənənəsi qoyuldu.

Dahi Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gələndən sonra ilk sərəncamlarından biri Dövlət Film Fondunun yaradılması barədə oldu ki, bununla da Ulu Öndər Azərbaycan filmlərini məhv olmaqdan qorudu. 1998-ci ildə “Kino haqqında” qanun qəbul olunmaqla Azərbaycan kinosunun hüquqi bazası yardıldı. Qeyd edək ki, MDB ölkələri arasında Rusiyadan sonra yalnız Azərbaycanda belə bir qanun qəbul edilib.

Azərbaycanda kino çəkilişlərinə hər il dövlət büdcəsindən vəsait ayrılır və ilbəil bu vəsaitin həcmi artırılır. 2000-ci ildə 600 min, 2004-cü ildə 850 min, 2005-ci ildə 1 milyon 400 min, 2006-cı ildə 2 milyon, 2007-ci ildə isə 3 milyon 300 min manat vəsait ayrılıb. Müstəqilliyin ilk illərində 3-4 ildə cəmi 1-2 bədii film çəkilirdisə və ya heç çəkilmirdisə, son 10 il ərzində “Ovsunçu”, “Hacı Qara”, “Küçələrə su səpmişəm”, “Arxada qalmış gələcək”, “Girov”, “Əlvida, Cənub şəhəri”, “Cavid ömrü”, “Hökmdarın taleyi”, “Manifest”, “Biz qayıdacağıq”, “Axınla aşağı”, “Dolu”, “Yarımçıq xatirələr” və sair bədii, xeyli sayda sənədli və cizgi filmləri ekranlaşdırılıb.

2007-ci il fevralın 20-də Prezident İlham Əliyev “Azərbaycanda kino sənətinin inkişaf etdirilməsi haqqında” sərəncam imzaladı. Bu sərəncam kinomuzun maddi-texniki bazasının möhkəmləndirilməsinə xidmət edir. Xatırladaq ki, 1976-cı ildə Ulu Öndər Heydər Əliyev də “Kino sənətinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında” sərəncam imzalamışdı. O vaxtdan kinostudiya həmin il alınan avadanlıqlarla işləyirdi. İndi “Azərbaycanfilm” yeni avadanlıqlarla təchiz edilib.

Bu gün artıq milli kinomuzun dünya ekranlarına çıxması üçün bütün imkanları var. Qalır yalnız ona münasibət. Milli kino sahəsində əsas çətinliklərimizdən biri filmlərin satış məsələsidir. Yəni çəkilən filmlərimizi dünya ekranlarına çıxararaq nümayiş etdirmək imkanlarımız məhduddur. Bu məsələni həll etmək məqsədilə filmlərin çəkilişlərinin və nümayişinin prodüser mərkəzlərinə həvalə edilməsi ilə bağlı layihə hazırlanıb həyata keçirilmək üzrədir.

Bu, atılacaq addımların başlanğıcı olsun. Amma kinonun inkişafı üçün hələ çox iş görülməlidir. Onun dünya ekranlarına çıxıb Azərbaycanın adını ucaltması üçün yalnız dövlət deyil, həm də ayrı-ayrı imkanlı şəxslər, ümumilikdə xalq maraqlı olmalıdır. Çünki kino təkcə milli deyil, həm də siyasi məsələdir. Kinonun təbliğat gücü və auditoriyası daha genişdir.

Bu gün Azərbaycan dünyaya öz torpaqlarını işğaldan azad etməsi, düşmən üzərində qələbəsi ilə qürurlanır. Bu qələbəni və tarixi gələcək nəsillərə yalnız kinonun dili və imkanları ilə çatdırmaq mümkündür. Söz yox ki, yeni-yeni əsərlər yaranacaq. Qarabağda, Şuşada oğullar yüzlərlə “film çəkib”, ekranlarda indiyə qədər görülməyən “kadrlar yaradıb”. Qalır onları kino lentinə köçürüb kinotetrlara daşımaq.

2 avqust Azərbaycanda Milli Kino Günüdür. Hər sahədə uğur, qələbə qazanan Azərbaycanın tezliklə kino sahəsində də yeni uğurlara imza atacağına inanırıq. Tezliklə Şuşa fatehlərinin obrazları canlandırılan Azərbaycan kinosunun səsi dünya kinoteatrlarından gələcək. Həm onları kino ilə tarixiləşdirmək, həm də kinomuzu onlarla dünya ekranlarına çıxarmaq uğurlarımız olacaq. Buna inanırıq. Kino gününüz mübarək!

***Ramilə QURBANLI, “Azərbaycan”***

# Reza DEQATİ: “Mən 30 ildir Qarabağ məsələsini dünya ictimaiyyətinə çatdırıram”





Hər zaman görəndə ki, dünya haqq sözə göz yumub, fotolarımla ədalətin bərpa olunacağına inanmışam. Bir çox ölkədə siyasi səbəblərə görə insanlara səhv məlumat verilir. Mən həmin insanların gözünü açmağa çalışmışam. Çox zaman Avropada, əsasən də Fransada dünyada baş verən hadisələri cəmiyyətə olduğu kimi çatdırmırlar. Mən orada sərgilər təşkil edir, insanlara fotolarımla həqiqəti göstərməyə çalışıram.

AZƏRTAC xəbər verir ki, bu sözləri dünya şöhrətli fotoqraf Reza Deqati iyulun 31-də Heydər Əliyev Mərkəzinin önündə açıq havada təşkil olunan “Fotoların tarixi” adlı sərgisində deyib.

“Mən 30 ildir Qarabağ məsələsini dünya ictimaiyyətinə çatdırıram. Fransada təşkil etdiyim sərgidə erməni diasporu mənimlə razılaşmır, hətta sərgimi pozmağa çalışıb. Əfqanıstan, Ruanda, Sarayevo məsələlərində də eyni hallarla qarşılaşmışam. Kimsə mənimlə razılaşmayanda fakt olaraq fotolarımı göstərirəm”, - deyə Reza Deqati bildirib.

Sərgilənən fotoları haqda məlumat verən Reza Deqati Azərbaycanın tolerant ölkə olduğunu bildirib: “Rus pravoslav kilsəsi sovet dövründə bağlanıb, anbar və idman zalı kimi istifadə edilib. 1990-cı ildə baş vermiş Qanlı 20 Yanvar hadisələrində sovet raketləri kilsəyə ciddi ziyan vurub. 2000-ci ildə azərbaycanlı iş adamı Aydın Qurbanov kilsəni öz vəsaiti hesabına bərpa etdirib. Bu, azərbaycanlıların tolerant olduğunu göstərən nümunələrdən biridir”.

Birinci Qarabağ müharibəsində Şuşada olarkən çəkdiyi foto barədə danışan R.Deqati deyib: “O vaxt yollar bağlı idi. Dağlarda uzun və çətin yürüşdən sonra mən Şuşa şəhərinə çatdım. Blokada zamanı artilleriya atəşi şəhərin əksər hissələrini məhv etmişdi və buna görə də azərbaycanlı əsgərlər Şuşadakı məktəbdən yaşayış yeri kimi istifadə edirdilər. O vaxt cəsur əsgərlər lazımi təchizatların çatışmazlığı səbəbindən əziyyət çəkirdilər. 1992-ci il mayın 8-də erməni silahlı qüvvələri şəhəri ələ keçirdilər. 28 il sonra, 2020-ci il noyabrın 8-də şiddətli döyüşlər nəticəsində Azərbaycan əsgərləri ən təhlükəli və çətin dağ yollarını aşaraq şəhəri geri qaytardılar. Mən oraya qayıdanda bütün evlərin, məscidlərin, muzeylərin, tarixi abidələrin, məktəblərin, qəbiristanlıqların məhv edildiyini gördüm. Bu isə erməni faşizminin mahiyyətini göstərir”.

Sərgidə Reza Deqati çəkdiyi digər fotoların da tarixindən danışıb, ictimaiyyət nümayəndələrinin və jurnalistlərin suallarını cavablandırıb.

Qeyd edək ki, sərgidə məşhur fotoqrafın 100 fotosu nümayiş etdirilir.


# Lənkəran Dövlət Universiteti *açıq tender (e-tender) elan edir*

LOT-1. Dəftərxana və təsərrüfat mallarının alınması Lənkəran Dövlət Universiteti büdcədənkənar vəsaiti hesabına açıq tender metodu tətbiq etməklə elektron satınalma vasitəsilə “Dəftərxana və təsərrüfat mallarının alınması” işlərinin satın alınmasını həyata keçirir. Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq öz tender təkliflərini https://www.etender.gov.az- dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar. İddiaçılar https://www.etender.gov.az-dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər. İddiaçılar aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba “ASAN ödəniş” sistemi ilə köçürdükdən sonra Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər. Tenderdə iştirak haqqı 250 (iki yüz əlli) manatdır.

**Lənkəran Dövlət Universiteti**
**Hesab: № AZ97AIIB33080019443870045138**
**VÖEN: 2600135481**
**“Kapital Bank” ASC Lənkəran filialı**
**Kod: 200383**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK AIIBAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının son bir ildəki (əgər daha az müddətdə fəaliyyət göstəribsə , bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayışı;*
- *nizamnaməsi;*
- *qeydiyyatdan keçdiyi ölkə;*
- *rekvizitləri.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 20 avqust 2021-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə 30 avqust 2021-ci il saat 17:00-a qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Elektron satınalmanın açılışı 31 avqust 2021-ci il saat 17:00-da dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

# Lənkəran Dövlət Universiteti “Qeyri-maddi aktivlərin alınması”nı kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (025) 255-14-80 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 02.08.2021-ci il saat 09:00-dan 13.08.2021-ci il saat 17:00-dək Lənkəran şəhəri, Həzi Aslanov, 50 ünvanına təqdim olunmalıdır.

***Tender komissiyası***

# Lənkəran Dövlət Universiteti “Mətbəə məhsullarının alınması”nı kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (025) 255-14-80 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 02.08.2021-ci il saat 09:00-dan 13.08.2021-ci il saat 17:00-dək Lənkəran şəhəri, Həzi Aslanov, 50 ünvanına təqdim olunmalıdır.

***Tender komissiyası***


# Azərbaycanda koronavirus infeksiyasına 633 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 633 yoluxma faktı qeydə alınıb, 174 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan bir nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 343 min 849 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 332 min 926 nəfər müalicə olunaraq sağalıb, 5 min 23 nəfər vəfat edib. Aktiv xəstə sayı 5 min 900 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 10 min 386, bugünə qədər isə ümumilikdə 4 milyon 34 min 340 test icra olunub.







# İyulun 31-də Azərbaycanda 86 min 790 vətəndaşa COVID-19 əleyhinə peyvənd vurulub

İyulun 31-də Azərbaycanda 86 min 790 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiya olunub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 52 min 276, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 34 min 514 nəfər təşkil edib.

Azərbaycanda bugünə qədər vurulan vaksinlərin ümumi sayı 4 milyon 972 min 362, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 2 milyon 880 min 131, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 2 milyon 92 min 231 nəfər təşkil edir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan





AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 4795
Sifariş 1343
Qiyməti 40 qəpik